19 yanvar 2022 №4 (1877)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Milli qürur günümüz

## 20 Yanvarda şəhadət yoluna "Qarabağ!" deyə çıxanların ruhu şaddır

*Qatil gülləsinə qurban gedərkən,*
*Gözünü sabaha dikdi şəhidlər.*
*Üçrəngli bayrağı öz qanlarıyla*
*Vətən torpağına çəkdi şəhidlər.*



Dilimizdə, dini-mənəvi dəyərlər sistemimizdə yüzilliklər öncədən olsa da, etiraf edək ki, şəhidliyin uca anlamı, torpaq, Vətən uğrunda şəhadətin dərin mənası bizim üçün ən yaxın tariximizdə, bugünkü orta və yaşlı nəslin gözü qarşısında baş verən 20 Yanvarda agah və ayin oldu. O gecə güllə yağışında torpağa düşənlər sayəsində torpağın necə Vətən olduğunu bəlkə də çoxumuz ilk dəfə yəqin etdik...

Xalq şairi Bəxtiyar Vahabzadənin həzin, duyğulu misralarında da vurğulandığı kimi, onlar şəhid olarkən, gözləri sabaha dikilmişdi. Gözləri arxada qalmışdı, bu ölkə, vətən – Azərbaycan necə olacaq deyə...

Həmin gecə Bakıda güllə yağışına tutulan xalq doğma torpağını, milli heysiyyətini, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü qorumaq istəyirdi. "Azadlıq!" hayqıran xalq ondan iki il öncə "Qarabağ bizimdir – bizim olacaq!" şüarı ilə meydana çıxmışdı. Həmin iki ildə Qarabağ dərdinə əlac tapılmadığı üçün, yerli (respublika) və mərkəzi hakimiyyət Ermənistandakı dədə-baba yurdlarından qovulan, Qarabağdakı əzəli torpağına əl uzanan xalqın haqq çağırışına biganə qaldığı üçün bu xalqın yolu 20 Yanvara gəlib çıxdı...

1990-cı il yanvarın 20-nə keçən gecə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasına etiraz edən, Azərbaycanın suveren hüquqlarının müdafiəsinə qalxan xalqımıza qarşı sovet hərb maşını qətliam törətdi. Bu qırğın Azərbaycan xalqını qorxutmaq, sındırmaq, onun milli oyanışını, Vətən torpağı uğrunda mübarizliyini məhv etmək məqsədi daşıyırdı. Amma xalqımız həmin faciənin ağırlığı altında sınmadı, milli qürurunu itirmədi. Bakı küçələrini boyamış şəhid qanları milli məfkurəmizin oyanan günəşinin al şəfəqinə çevrildi. 20 Yanvar Azərbaycan xalqının iradəsinin sarsılmazlığının, mətinliyinin sübutu idi. Müstəqil Azərbaycan onun suverenliyi uğrunda canından keçənlərin xatirəsinə ən böyük abidə oldu...

1990-cı ilin o yanvar gecəsi qanına qəltan edilənlərin gözləri arxada qalmışdı. Bu şəhadət yoluna çıxarkən hayqırdıqları "Qarabağ necə oldu" deyə... Tam otuz il sürdü bu nigarançılıq. 2020-ci ilin 44 günü otuz ilin şəhid ruhlarının nigarançılığına da, Qarabağ həsrətinə də son qoydu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun gerçəyə çevirdiyi "Qarabağ Azərbaycandır" nidası, ərazi bütövlüyümüz ilə bərabər, otuz il öncəki yanvar gecəsinə aparan yolun şüarını da tamamladı...

20 Yanvar Azərbaycan xalqının qan yaddaşına əbədi həkk olunan tarix səhifəsidir. Bu günü ilk ildönümündən başlayaq hüzn və qürur günü kimi qeyd etmişik. Amma 2020-ci ilin tarixi Zəfərindən sonra bu sırada qürur hüzndən önə keçdi...

Artıq ikinci ildir bu günü Zəfər ruhunda qeyd edirik. Vətən torpağı şəhidləri ilə ucalır. Xalqımız qəhrəman övladlarının şəhidlik zirvəsinə baxıb başını dik tutsun. Çünki onun uğrunda özünü fəda edən bütün övladlarının, 1990-cı ilin yanvar gecəsi torpağa düşənlərin də ruhu şaddır...

## Tarix və millət qarşısında xidməti olanları Azərbaycan xalqı qəlbində yaşadır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında iştirak edib.

Dövlət başçısı metronun "İçərişəhər" stansiyasının qarşısındakı meydanda ucaldılan abidənin üzərindəki örtüyü götürüb. Bürüncdən tökülmüş abidənin müəllifi tanınmış heykəltəraş, Xalq rəssamı Xanlar Əhmədovdur.

Qeyd edək ki, abidə Prezident İlham Əliyevin sərəncamı ilə ucaldılıb. Dövlət başçısı 2020-ci il martın 11-də Azərbaycan neft sənayesinin təşəkkülündə mühüm xidmətləri olmuş böyük xeyriyyəçi, maarifpərvər və ictimai xadim Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması haqqında sərəncam imzalamışdı.

Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti 2019-cu ildə heykəlin hazırlanması üzrə açıq müsabiqə elan etmişdi. Müsabiqəyə təqdim olunan layihələr arasından Xalq rəssamı Xanlar Əhmədovun layihəsi qalib seçilib. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb. Eyni zamanda Heydər Əliyev Fondu görmə qabiliyyətini itirmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə lövhədə əks olunan məlumatları Brayl əlifbası ilə də təqdim edib.

Xalq rəssamı Xanlar Əhmədovu salamlayan Prezident İlham Əliyev abidənin həm Hacı Zeynalabdin Tağıyevin əzəmətini əks etdirdiyini, həm də heykəltəraşlıq baxımından çox gözəl olduğunu vurğulayıb.

*davamı səh. 2-də*

## Mədəniyyət Nazirliyinin kollegiya iclası keçirildi

### "Şuşa İli" fəaliyyətimizin ana xəttini təşkil edəcək

Yanvarın 17-də Mədəniyyət Nazirliyinin kollegiya iclası keçirildi. "Zoom" proqramı vasitəsilə onlayn təşkil edilən iclasa nazirliyin rəhbərliyi, struktur bölmələrin və tabe müəssisələrin rəhbərləri qatılmışdı.

Mədəniyyət naziri Anar Kərimov iclası açaraq iştirakçıları salamladı və 2021-ci ildə nazirlik tərəfindən mədəniyyətin müxtəlif sahələri üzrə görülən işlər barədə hesabat məruzəsi ilə çıxış etdi.

**İncəsənət və qeyri-maddi mədəni irs**

Anar Kərimov incəsənət və qeyri-maddi mədəni irs sahəsi üzrə həyata keçirilən layihələrdən söz açaraq dövlət başçısının sərəncamı ilə qeyd olunan yubileylər haqqında məlumat verdi. Bildirildi ki, Aşıq Ələsgərin 200, Mikayıl Abdullayev, Kamil Əliyev və Cahangir Cahangirovun 100 və digər yubileylərlə bağlı müxtəlif səpkili tədbirlər təşkil olunub.

Bundan əlavə, il ərzində Vətən müharibəsində Zəfərimizin ildönümü münasibətilə yaradıcılıq müsabiqələri keçirilib. Bəstəkarlar İttifaqı ilə birlikdə bəstəkarlıq müsabiqəsində həm gənc, həm də orta nəsil bəstəkarlar fəal iştirak ediblər. "4.4" Qısa Tamaşalar Festivalında dövlət və özəl teatrlar, eləcə də regionlarda fəaliyyət göstərən teatr kollektivləri yaradıcılıq nümunələrini ortaya qoyublar. Noyabrda 10 gün ərzində Zəfərimizin ildönümü münasibətilə sənətin müxtəlif sahələrini əhatə edən tədbirlər reallaşıb.

Ədəbiyyat və incəsənət xadimlərinin əlamətdar yubileyləri münasibətilə Azərbaycan Dövlət Akademik Filarmoniyası və Heydər Əliyev Sarayında konsertlər təşkil olunub. İl ərzində "Mədəni yenilənmə" layihəsi çərçivəsində xaricdə yaşayan yaradıcı soydaşlarımızın iştirakı ilə ustad dərsləri və görüşlər keçirilib. Layihənin bu il də davam etdirilməsi nəzərdə tutulur.

*davamı səh. 3-də*

## Layihəyönlü fəaliyyət idarəçiliyin təkmilləşdirilməsinə xidmət edəcək

Mədəniyyət Nazirliyi layihəyönlü fəaliyyətə başlayır. Layihəyönlü fəaliyyətin məqsədi ilk növbədə idarəçiliyin təkmilləşdirilməsi və gücləndirilməsidir.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bu sözləri Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyi daxilində layihəyönlü idarəçiliyə keçid və 2022-ci il üçün nəzərdə tutulmuş layihələrlə bağlı təqdimatdan öncə jurnalistlərə açıqlamasında bildirib.

*səh. 3*

## Videoçarx ssenariləri müsabiqəsinin nəticələri elan olunub

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinin icrasını təmin etmək, eləcə də mədəniyyət və incəsənət sahəsində təhsil alan gənclərin yaradıcılığını stimullaşdırmaq və yeni yaradıcı qüvvələri audiovizual sahəyə cəlb etmək məqsədilə keçirilən videoçarx ssenariləri müsabiqəsinə yekun vurulub.

*səh. 2*

## Doha sərgisində Azərbaycan kitablarının təqdimatı

Xəbər verdiyimiz kimi, 13-22 yanvar tarixində Qətərin paytaxtı Dohada keçirilən 31-ci Beynəlxalq Kitab Sərgisində ölkəmiz də iştirak edir. Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təmsil olunduğu sərgidə qurulan milli stendimizdə Azərbaycan, ərəb, ingilis dillərində kitablar yer alıb. Sərginin ziyarətçiləri Azərbaycan stendi ilə də maraqla tanış olurlar.




31-ci Doha Beynəlxalq Kitab Sərgisindəki Azərbaycan pavilyonunda tanınmış rus şərqşünası Y.Bertelsin "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" kitabının ərəb dilində nəşrinin təqdimatı olub. Professor Y.Bertelsin ötən əsrin 40-cı illərində yazdığı kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə layihəsi ilə ərəb dilinə tərcümə olunaraq nəşr edilib.

Mərasimi Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq Nizami Gəncəvinin Azərbaycanın bəşər mədəniyyətinə bəxş etdiyi ən qüdrətli dühalardan biri olduğunu vurğulayıb. Bildirib ki, böyük şairi səkkiz əsrdən çox ürəklərdə yaşadan əsas amil onun öz əsərlərində ümumbəşəri ideyaları, mənəvi dəyərləri, xalqlar arasında dostluğu, insanlar arasında bərabərliyi və digər mənəvi dəyərləri tərənnüm və təbliğ etməsidir.

*davamı səh. 2-də*




## "Nizamini oxuyaq" kitab-albomu Serbiyada tanıdılıb

*səh. 8*

## "Şuşa İli"ndə Şuşadan ilk reportaj

Pənahəli xanın təməlini qoyduğu Şuşa qala-şəhərinin bu il 270 yaşı tamam olur. Qarabağın tacı, mədəniyyətimizin beşiyi Şuşa 28 illik barbar istilasından sonra artıq ikinci ildir azad həyatını yaşayır. Prezident İlham Əliyev tərəfindən elan edilən "Şuşa İli" şəhərin tarixində xüsusi mərhələ olacaq. AZƏRTAC-ın bölgə müxbiri "Şuşa İli"ndə mədəniyyətimizin paytaxtından ilk reportaj hazırlayıb.

Şuşa bir qış səhərində qonaqları yanvar ayına xas olmayan günəşli hava ilə qarşılayır. Elə ilk anlardan quruculuq işləri diqqəti cəlb edir. İnfrastrukturun qurulması ilə yanaşı, Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtı elan edilən Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.



Pənahəli xanın sarayının, xan qızı Natəvanın, dahi Üzeyir Hacıbəylinin, Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndəsi Xan Şuşinskinin, tarzən Sadıqcanın evlərinin, qədim məhəllələrdəki məscidlərin, Şirinsu hamamının, digər tikililərin erməni vandalizminə məruz qalaraq dağıdılmış görkəmi ürəyi dağlasa da, tarixi mədəniyyət abidələrində bərpa işləri bizi sevindirir. Şuşa işğaldan azad edildikdən sonra "Xan qızı" bulağı bərpa edilib.

*davamı səh. 4-də*

## Tarix-Diyarşünaslıq Muzeyinin eksponatları bərpa olunub



*səh. 4*

## Yaradıcılıq zəminli görüşlər

Bəstəkar və musiqişünasların, gənc teatr sənətçilərinin fikirləri dinlənilib

*səh. 5*



## Azərbaycan-Türkiyə diplomatik münasibətlərinin 30 illiyi

*səh. 8*

№4 (1877)
19 yanvar 2022
www.medeniyyet.az

BAKIDA XEYRİYYƏÇİ TAĞIYEVİN ABİDƏSİ UCALDILIB

# Tarix və millət qarşısında xidməti olanları Azərbaycan xalqı qəlbində yaşadır

əvvəli səh. 1-də

Xanlar Əhmədov dövlət başçısına minnətdarlığını bildirərək abidənin yerinin tarixi bir məkan olduğunu vurğulayıb. “Bəli, tarixi yerdir. Tarixi qala divarları. Bakının ən gözəl yerlərindən biridir. Yadımdadır, o vaxt bir neçə yer təklif edilmişdi. Mən buranı seçdim ki, onun abidəsi məhz burada olmalıdır”, – deyə Prezident İlham Əliyev əlavə edib.

Prezidentin köməkçisi Anar Ələkbərov məlumat verib ki, abidə üçün elan edilən müsabiqədə 26 işdən məhz Xanlar Əhmədovun əsəri seçilib.

Dövlət başçısı heykəltəraşı təbrik edərək ona uğurlar arzulayıb. Bildirib ki, bizim tarixi şəxsiyyətlərimizin heykəllərinin ucaldılması prosesi davam edir və belə işlər çox olacaq.

Sonra dövlət başçısı çıxış edib. “Bu abidənin açılması çox əlamətdar hadisədir. 2020-ci ildə mənim tərəfimdən Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması ilə bağlı müvafiq sərəncam imzalanmışdır. Açıq müsabiqə elan edilmişdir və Xalq rəssamı, məşhur heykəltəraş Xanlar Əhmədovun işi müsabiqədə qalib gəlmişdir. Ondan sonra mənə abidənin ucaldılması üçün bir neçə yer təklif edildi və mən məhz bu yeri seçdim. Çünki Zeynalabdin Tağıyevin adına layiq olan bir yerdir, Bakının tarixi yerlərindən biridir, şəhər sakinlərinin ən sevimli yerlərindən biridir, tarixi qala divarının önündədir. Tağıyevin abidəsinin məhz bu yerdə yerləşməsinin böyük rəmzi mənası var. Çünki Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük töhfələr vermişdir”, – deyə Prezident İlham Əliyev bildirib.

Prezident qeyd edib ki, Tağıyev çox zəngin adam idi, amma hər kəs bilir ki, çox kasıb ailədə böyümüşdü və sərvətini öz zəhməti hesabına qazanmışdı: “Ancaq tarixdə o, zəngin adam kimi yox, məhz xeyriyyəçi kimi qalmışdır. Əgər onun xeyriyyəçilik fəaliyyəti olmasaydı, yəqin ki, o, Azərbaycan xalqının yaddaşında qalmazdı. Onun təşəbbüsü ilə Azərbaycanda bir çox önəmli layihələr həyata keçirilmişdir. Onların arasında, əlbəttə ki, Bakıya içməli suyun gətirilməsi layihəsini xüsusilə qeyd etməliyəm. Şollar su kəməri bu günə qədər fəaliyyətdədir, bu günə qədər Bakını, Sumqayıtı təmiz içməli su ilə təmin edir. Bu kəmərin tikintisi üçün Zeynalabdin Tağıyev öz vəsaitindən istifadə etmişdir. Məhz onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası inşa edilmişdir, bir çox sənaye müəssisəsi inşa edilmişdir, azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açılmışdır. Deyə bilərəm ki, müsəlman aləmində ilk dünyəvi məktəb məhz Bakıda azərbaycanlı qızlar üçün Tağıyevin vəsaiti və təşəbbüsü ilə yaradılmışdır.



Bakıda tramvay xətlərinin açılması da Tağıyevin adı ilə bağlıdır. Bu gün Bakıya əlavə gözəllik verən, Bakının memarlığına töhfə verən bir çox gözəl binaların müəllifi, yəni ki, təşəbbüskarı məhz Tağıyev olmuşdur. Biz Bakının müxtəlif yerlərində onun memarlıq əsərlərini görə bilərik. Baxmayaraq ki, o, kasıb ailədə doğulub və o dövrün mühitində böyüyüb, amma Bakının gözəlliyini təmin etmək üçün xaricdən memarlar dəvət etməsi onun mütərəqqi fikirdə olmasından xəbər verir. Qızlar üçün məktəbin açılması gələcəyə yönəlmiş bir addımdır”.

Dövlət başçısı Tağıyevin o dövrdə bir çox gəncin Rusiyada və Avropada təhsilinə dəstək verdiyini xüsusi vurğulayıb: “Bu da gələcəyə yönəlmiş bir addım idi, gələcəyi düşünürdü. Mən artıq bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, o tələbələrin arasında mənim babam Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu, təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur. Hesab edirəm ki, bu hadisə onun gələcək taleyində həlledici rol oynamışdır. Çünki o həm gözəl həkim, eyni zamanda, böyük dövlət xadimi olmuşdur. İkinci Dünya müharibəsində onu Bakıdan Dağıstana ezam etmişlər. Bir neçə il Dağıstanın rəhbəri vəzifəsində işləmişdir və dağıstanlıları sürgündən xilas etmişdir. Çünki o vaxt başqa Qafqaz xalqları ilə bərabər, dağıstanlıları da Qazaxıstana sürgün etmək istəyirdilər, sovet hökumətinin belə planları var idi. Məhz Əziz Əliyevin qətiyyətli mövqeyinə görə bu, baş vermədi. Dağıstanlılar bunu yaxşı bilirlər, yaxşı xatırlayırlar və təsadüfi deyil ki, Mahaçqalada dağıstanlıların təşəbbüsü ilə Əziz Əliyevin abidəsi ucaldılmışdır”.

Prezident daha sonra deyib: “Zeynalabdin Tağıyev Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etdirmiş və eyni zamanda, bu sahədə də təşəbbüskar olmuşdur. İlk dəfə olaraq Qurani-Kərim Azərbaycan dilinə tərcümə edilmişdir. Onun təşəbbüsü və maliyyə vəsaiti hesabına Azərbaycanda bir çox dini abidə inşa edilmiş və təmir olunmuşdur. Onun təhsillə bağlı təşəbbüsləri təkcə Bakı ilə məhdudlaşmırdı. Eyni zamanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Gürcüstanda azərbaycanlıların yaşadıqları bölgələrdə onun pulu hesabına məktəblər açılmışdır.

Yəni, onun haqqında çox danışmaq olar. O, böyük şəxsiyyət idi, xalqa bağlı olan, xalqı qəlbən sevən, xalqın gələcəyini düşünən bir insan idi. Onu da bildirməliyəm ki, XIX əsrdə xeyriyyəçilik ənənələrini məhz Zeynalabdin Tağıyev qoymuşdur. Bu ənənələr sovet dövründə, təbii ki, davam etmədi. Onu da bildirməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra sovet hakimiyyəti onu bütün imkanlardan məhrum etmişdir, onun bütün əmlakları əlindən alınmışdı, tək bir bağ qalmışdı, orada da o, ömrünün sonuna qədər yaşamışdır. O, uzun ömür yaşadı, dolğun ömür yaşadı. Ancaq əfsuslar olsun ki, ömrünün sonunda bu cür ədalətsizliklə üz-üzə qaldı və həyatdan çox narahat getdi”.

### Tağıyevin xeyriyyəçilik ənənələri davam edir

Dövlət başçısı bildirib ki, Tağıyevin qoyduğu xeyriyyəçilik ənənələri bu gün müstəqil Azərbaycanda davam edir: “Bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, Fond digər layihələrdə də fəal iştirak edəcək. Bildiyiniz kimi, məcburi köçkünlər üçün yeni evlərin yaradılması da Heydər Əliyev Fondunun təşəbbüsü ilə geniş vüsət almışdır və mənim iştirakımla Qobu qəsəbəsində bir neçə böyük, çoxmərtəbəli evlərin inşası təmin edilmişdir.

Yəni, bu ənənələr var, davam edir, cəmiyyətdə çox yüksək qiymətləndirilir. Müharibədən sonra mənim təşəbbüsümlə Qarabağ Dirçəliş Fondu, “YAŞAT” Fondu yaradılmışdır. Azərbaycan vətəndaşları, eyni zamanda, şirkətlər könüllü olaraq həm Qarabağ Dirçəliş Fonduna, həm “YAŞAT” Fonduna vəsait təqdim edirlər və bu vəsait hesabına bu gün yüzlərlə qazi həm Azərbaycanda, həm xüsusilə xaricdə müalicə alır, həyata qayıdır, öz sağlamlığını bərpa edir. Bu, bir daha onu göstərir ki, xeyriyyəçilik hər zaman Azərbaycan xalqının ayrılmaz əlaməti olubdur. Sadəcə olaraq, buna şərait yaradılmalı idi, dövlət tərəfindən bu siyasət dəstəklənməli idi və bu gün biz bunu görürük”.

Zeynalabdin Tağıyevin şəxsiyyətinə həmişə böyük hörmətlə yanaşdığını vurğulayan İlham Əliyev deyib: “Hələ 2000-ci illərin əvvəllərində, – mən hələ Prezident deyildim, – onun qəbrinin yerləşdiyi Pirhəsən ziyarətgahı mənim təşəbbüsümlə abadlaşdırıldı və qəbrin ətrafında olan ərazi yeni görkəm aldı. Prezident seçiləndən sonra dərhal mənim təşəbbüsümlə onun evi, hazırda Tarix Muzeyinin binası əsaslı təmir edildi, həm onun yaşadığı evin bir hissəsi muzey kimi qaldı, eyni zamanda, Tarix Muzeyində bizim tariximizin müxtəlif dövrlərini əhatə edən eksponatlar nümayiş etdirilir.

Bu gün mən çox şadam ki, Zeynalabdin Tağıyevin abidəsi Bakıda ucaldılıb. O, buna layiq idi. Azərbaycan xalqı qarşısında, tarix qarşısında, millət qarşısında xidməti olan hər bir insanı Azərbaycan xalqı öz qəlbində yaşadır...”.

## Milli mesenat haqqında serial çəkiləcək

Məşhur Bakı milyonçusu, mesenat Hacı Zeynalabdin Tağıyev haqqında serialın hazırlıq mərhələsi davam edir. Səkkiz seriyadan ibarət film Mədəniyyət Nazirliyinin dəstəyi, Bakı Media Mərkəzi və digər bir neçə qurumun iştirakı ilə istehsal olunacaq.

Xatırladaq ki, 2023-cü ildə Hacı Zeynalabdin Tağıyevin anadan olmasının 200 illiyinin keçirilməsi planlaşdırılır. Böyük xeyriyyəçinin 200 illiyi ölkəmizin təşəbbüsü ilə UNESCO-nun 2023-cü il üçün yubileylər proqramına da salınıb. Tağıyev haqqında serialın da o tarixdə hazır olması nəzərdə tutulur.

## “Şuşa İli” ilə bağlı Tədbirlər Planı hazırlanacaq

Baş nazir Əli Əsədov “Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli 3096 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə sərəncam imzalayıb.

Sərəncama əsasən, Mədəniyyət Nazirliyi Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, “Şuşa İli” ilə bağlı Tədbirlər Planına dair təkliflərini iyirmi gün müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

## Narkomaniya mövzusunda videoçarx ssenariləri müsabiqəsinin nəticələri

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın 4.4.30-cu yarımbəndinin icrasını təmin etmək, eləcə də mədəniyyət və incəsənət sahəsində təhsil alan gənclərin yaradıcılığını stimullaşdırmaq və yeni yaradıcı qüvvələri audiovizual sahəyə cəlb etmək məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən narkomaniya mövzusunda videoçarx ssenariləri müsabiqəsi keçirilib. Tələbələr arasında keçirilən müsabiqədə ssenarilər 2021-ci il dekabrın 1-dən 30-dək qəbul olunub.

Müsabiqəyə təqdim edilən videoçarx ssenariləri əsasında münsiflər heyəti aşağıda adları qeyd olunan layihələri qalib olaraq seçib.

Münsiflərin qərarı ilə birinci yerə Murad Şükürlünün “Kilid ekranı”, 2-ci yerə Çinarə Əlişlinin “Həyat ağacı”, üçüncü yerə Ziyafət Kazımovun “Bir qrossmeysterin hekayəti” layihəsi layiq görülüb.

Qaliblər üçün mükafatlar müvafiq olaraq 1500, 1000 və 500 manatdır. Mükafatlandırma mərasiminin fevral ayının ikinci yarısında, ali təhsil qurumlarında ikinci semestr başladıqdan sonra keçirilməsi nəzərdə tutulur.

Müsabiqənin münsiflər heyətinin sədri Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) Kino və televiziya fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elnur Mehdiyev, üzvləri ADMİU-nun Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasının müdiri, dramaturq Əli Əmirli, sənətşünas, kino və televiziya redaktoru Nadir Bədəlovdur.

## “Əbu-Dabi Dayanıqlılıq Həftəsi”nin açılışı olub

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində – “Expo Dubai – 2020” dünya sərgisində “Əbu-Dabi Dayanıqlılıq Həftəsi”nin açılışı olub və “Zayed Dayanıqlılıq Mükafatı”nın təqdimetmə mərasimi keçirilib. Tədbirlərdə Azərbaycanı Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

2008-ci ildən etibarən ənənəvi olaraq keçirilən, müxtəlif ölkələrdən nümayəndə heyətlərinin, sahibkarların, elm adamlarının qatıldığı “Əbu-Dabi Dayanıqlılıq Həftəsi” bu mövzuda dünyanın ən aparıcı tədbirlərindən hesab olunur.



“Qlobal əməkdaşlıq və liderlik”, “İqtisadi inkişaf, texnologiya və innovasiya” mövzularına həsr olunmuş “Əbu-Dabi Dayanıqlılıq Həftəsi – 2022” tədbirinin əsas ideyası qlobal iqlim və dayanıqlılıq məqsədlərinə çatmaq üçün zəruri iqtisadi inkişaf həllərinin, texnologiyaların və innovasiyaların tətbiqi məsələsidir.

Baş nazirin müavini Əli Əhmədov tədbir çərçivəsində BƏƏ-nin vitse-prezidenti və Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Raşid əl-Məktumla görüşüb. Yüksək səviyyəli tədbirə dəvətə görə minnətdarlığını bildirən Əli Əhmədov Baş nazirə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını çatdırıb. BƏƏ-nin Baş naziri dövlətimizin başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını və xoş arzularını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Əli Əhmədov BƏƏ-nin “Masdar” şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil əl-Ramah ilə də görüşüb. Görüş əsnasında “Masdar” şirkəti tərəfindən ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan layihələrə, ölkəmizin işğaldan azad edilən ərazilərində investisiya qoyuluşu imkanlarına dair geniş fikir mübadiləsi aparılıb.

Baş nazirin müavini “Expo Dubai – 2020” kompleksində Azərbaycan pavilyonunu da ziyarət edib.

## Doha sərgisində Azərbaycan kitablarının təqdimatı

əvvəli səh. 1-də

Kərim Tahirov 2020-ci ildə xalqımızın otuzillik həsrətinə son qoyan, Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfərdən bəhs edən “Dəmir yumruğun gücü” kitabının Avrasiya Mətbuat Fondunun dəstəyi ilə ərəb dilində nəşri və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun ərəb dilində nəşr etdiyi “Azərbaycanın qadın ziyalıları” kitabı barədə də təqdimat iştirakçılarına məlumat verib.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Akif Marifli belə mötəbər beynəlxalq sərgidə 3 mühüm kitabın eyni zamanda təqdimatının əlamətdar hadisə olduğunu deyib. O, təqdim olunan nəşrlərin Azərbaycan həqiqətlərinin dünyada təbliği istiqamətində Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə həyata keçirdiyi uğurlu layihələrdən olduğunu qeyd edərək Milli Kitabxananın direktoruna, eləcə də Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevaya, nəşrlərin ərəbcə işıq üzü görməsində iştirak etmiş misirli ədəbiyyatşünas, tərcüməçi Əhməd Sami əl-Aydiyə, habelə Azərbaycanın Qətərdəki Səfirliyinin əməkdaşlarına təşəkkürünü bildirib.

Təqdimatda Qətər Milli Kitabxanasının icraçı direktoru xanım Tan Huism, səfirliyimizin nümayəndəsi, Qətərdə yaşayan və işləyən mütəxəssislər, stendimizin ziyarətçiləri iştirak ediblər.

Tədbirin sonunda hər üç kitabın nüsxələri tədbir iştirakçılarına paylanılıb və onlar Azərbaycandan gətirilmiş milli mətbəximizin ləziz nümunələrinə qonaq ediliblər.

***

31-ci Doha Beynəlxalq Kitab Sərgisində Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov Qətər Milli Kitabxanasının icraçı direktoru xanım Tan Huism ilə görüşüb.

Kərim Tahirov 4 il öncə Qətər və Azərbaycan milli kitabxanaları arasında bağlanmış qarşılıqlı əməkdaşlığa dair memorandumun əhəmiyyətini vurğulayıb, bu sənədə əsasən, informasiya, kitab və təcrübə mübadiləsinin həyata keçirildiyini söyləyib. Direktor hər iki kitabxanada qarşılıqlı olaraq Azərbaycana və Qətərə dair guşələrin yaradılmasını təklif edib.

Xanım Tan Huism həmkarının irəli sürdüyü təklifə razı olduğunu bildirib və bu işi təşkil etmək üçün tədbirlərin görüləcəyini deyib.

Görüşdə iştirak edən Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli Qətər Milli Kitabxanasını 2023-cü ildə keçiriləcək VIII Bakı Beynəlxalq Kitab Sərgisinə dəvət edib.



Görüşün sonunda Kərim Tahirov xanım Tan Huismə Azərbaycan Milli Kitabxanası adından nəşrlər hədiyyə edib.

Xanım Tan Huism qonaqları Qətər Milli Kitabxanasının ekspozisiyası ilə tanış edib.

***

Azərbaycan nümayəndə heyətinin üzvləri dünyanın ən modern kitabxanalarından hesab olunan Qətər Milli Kitabxanasında da olublar. Kitabxananın muzeyində mühafizə olunan Nizami Gəncəvinin “Leyli və Məcnun” poemasının 1529-cu ildə üzü köçürülən əlyazması və digər kitab kolleksiyaları xüsusilə böyük maraq doğurub.

əvvəli səh. 1-də

# Mədəniyyət Nazirliyinin kollegiya iclası keçirildi

## "Şuşa İli" fəaliyyətimizin ana xəttini təşkil edəcək

### Muzey və qalereyalar

Muzey və qalereyaların fəaliyyəti barədə danışan nazir bildirdi ki, nazirliyin tabeliyində 133 muzey və 59 Heydər Əliyev Mərkəzi var. Bu məkanlarda ötən il müxtəlif sərgilər keçirilib, tədbirlər təşkil olunub. Diqqətə çatdırıldı ki, il ərzində "British Council" ilə muzey işində inklüzivlik üzrə birgə layihələr həyata keçirilib. Eyni zamanda görkəmli rəssamlar Mikayıl Abdullayev və Kamil Əliyevin 100 illik yubiley sərgiləri keçirilib. Milli İncəsənət Muzeyində Zəfər Gününə həsr olunmuş "Mədəniyyətimizin incisi – Qarabağ" sərgisi, Milli Xalça Muzeyi tərəfindən "Qarabağın xalça xəritəsi" layihəsi əsasında Zəfər xalçasının kəsimi gerçəkləşib.

İl ərzində aparıcı qalereyalar tərəfindən uşaq və gənclərin yaradıcılığının inkişaf etdirilməsi, həmçinin əlamətdar tarixi hadisə və yubileylərlə bağlı müxtəlif müsabiqə, sərgi və plenerlər keçirilib.

### Mədəni irsin qorunması

Mədəni irsin qorunması və bərpası sahəsində görülən işlərdən söz açan Anar Kərimov nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən qoruqlarda aparılan işləri diqqətə çatdırdı. Dedi ki, ötən il 155 abidə pasportlaşdırılıb, 10 abidənin mühafizə zonası təyin edilib. Bu abidələrin ümumilikdə 42-si Qarabağa, 30-u isə Şuşaya aiddir. Eyni zamanda Çıraqqala abidəsində bərpa və konservasiya işləri davam etdirilib.

### "Nizami ili": ölkəmizdə və xaricdə

Dövlət başçısı tərəfindən ölkəmizdə elan edilən "Nizami ili" çərçivəsində Azərbaycanda və xaricdə 100-dən artıq tədbirin təşkil olunduğunu bildirən nazir vurğuladı ki, TÜRKSOY və UNESCO-da dahi Nizamiyə həsr edilən tədbir və sərgilər böyük şairin irsinin təbliğində mühüm addımlar idi. Qeyd olundu ki, ötən il "Nizami ili"nə həsr olunan VII Beynəlxalq Kitab Sərgisində 12 ölkədən 40-dan çox xarici təşkilat və nəşriyyat iştirak edib. Bakıda, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında "İşıq festivalı" adlı audiovizual layihə həyata keçirilib. Rusiyanın Sankt-Peterburq şəhərindəki Dövlət Ermitaj Muzeyində Nizaminin 880 illik yubileyi qeyd olunub.

Bundan əlavə, Bakıda və Nizaminin yurdu Gəncədə beynəlxalq festival təşkil olunub. Bu festival çərçivəsində Bakıda 5 ölkədən 40-dan çox nizamişünasın iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Forumu təşkil edilib. İl ərzində dahi şairin "Xəmsə"sinin nəşri də həyata keçirilib.



### Kitab işi

Bildirildi ki, Mədəniyyət Nazirliyi tərəfindən kitabxanaların fondlarının yeni nəşrlərlə zənginləşdirilməsi və komplektləşdirilməsi diqqətdə saxlanılıb. "Nəşrlərin satınalınması müsabiqəsi"nin təşkilində şəffaflıq və səmərəliliyin təmin edilməsi məqsədilə müsabiqəni nazirlik tərəfindən yaradılan "Nəşr planının tərtibi və nəşriyyat məhsullarının satınalınması üzrə komissiya" həyata keçirib. Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə həyata keçirdiyi "Qarabağa kitabla gedək" layihəsi çərçivəsində 60 mindən çox kitab toplanıb. F.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası il ərzində vətənpərvərlik mövzusunda layihələr həyata keçiriblər.

Nazirlik tərəfindən ötən il elan edilən "Nizami Gəncəviyə məktub" beynəlxalq esse müsabiqəsi də başa çatıb. Müsabiqəyə 9 ölkədən 225 esse təqdim olunub. Hazırda müsabiqənin qiymətləndirmə prosesi aparılır və qaliblər bu il elan ediləcək.

### Qarabağa Böyük Qayıdış

Anar Kərimov il ərzində mədəniyyətin Qarabağa qaytarılması, işğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası istiqamətində dövlətimiz tərəfindən ardıcıl işlərin həyata keçirildiyini bildirdi. Qeyd etdi ki, işğaldan azad olunmuş Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Laçın və Kəlbəcər rayonları ərazisində Mədəniyyət Nazirliyi tərəfindən ilkin monitorinqlər aparılıb. Bu monitorinqlərin nəticələri beynəlxalq instansiyalara təqdim olunacaq.

Məlum olduğu kimi, dövlət başçısı tərəfindən 2022-ci il ölkəmizdə mədəniyyət paytaxtımızın 270 illiyi şərəfinə "Şuşa İli" elan edilib. Mədəniyyət Nazirliyi əlamətdar il münasibətilə tədbirlər planı hazırlayacaq.

Bildirildi ki, Qarabağımıza mədəniyyətin qaytarılması ötən il diqqətdə saxlanılıb, "Böyük Qayıdış – mədəniyyətin dirçəlişi" beynəlxalq konfransı təşkil edilib. Eləcə də Heydər Əliyev Fondu ilə birlikdə uzun illərdən sonra Şuşada "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri keçirilib. Həmçinin Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının bir neçə konserti dahi bəstəkarın yurdu Şuşada gerçəkləşib.

Anar Kərimov bildirdi ki, nazirlik Zəfər və İşğal muzeylərinin yaradılması üzrə fəaliyyətə başlayıb. Ağdam, Füzuli və Cəbrayıla səfəri zamanı Prezident İlham Əliyev bu muzeylərin təməlini qoyub: "Mədəniyyətin Qarabağa qaytarılması" layihəsi çərçivəsində digər çoxsaylı layihələr də var ki, nazirlik olaraq öz töhfəmizi verməyə çalışırıq. Bu töhfələrdən biri də Heydər Əliyev Fondu və Şuşa qoruğu ilə birlikdə 3 məscid və 3 kilsənin bərpasıdır".

### Audiovizual və interaktiv media

Nazir qeyd etdi ki, ötən il audiovizual və interaktiv media sahəsində görülən işlərin əksəriyyəti Qarabağımızın qurtuluşuna həsr olunub. Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası tərəfindən hazırlanan "Biz", "Şuşa, sən azadsan!", "Fulya" "İctimai" TV ilə birlikdə "Görünməyən qəhrəmanlar" 5 hissəli sənədli filmləri bu silsilədəndir: "Ötən il ərsəyə gələn filmlərimiz beynəlxalq festivallarda uğur qazanıb. Qəhrəmanlıq səhifəmizi əks etdirən filmlər üzərində iş davam edir. Qarşıda isə Vətən müharibəsində Zəfər mövzusunda bədii filmin istehsalı nəzərdə tutulur. "Böyük qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsinin qalib layihələri üzrə filmlərin çəkilişləri bu il də davam edəcək. "Nizami ili" ilə əlaqədar lentə alınan "Sevgi hekayəsi" filminin bu il başa çatdırılması nəzərdə tutulur".

Hesabat məruzəsində eyni zamanda "Azərbaycanfilm"də aparılan islahatlar, 12-ci Beynəlxalq Qısametrajlı Filmlər Festivalı, IV "Animafilm" Beynəlxalq Animasiya Festivalı barədə də söz açıldı.

### Yaradıcı sənayelər və rəqəmsal inkişaf

Anar Kərimov qeyd etdi ki, nazirlikdə ayrıca Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsi yaradılıb. 2022-ci ildə bu sahə prioritet istiqamətlərdən biri olacaq. Yeni mədəni dəyərlərin yaradılması, yaradıcı sənayelərin inkişafı hədəfi üzrə Azərbaycan Dizaynerlər Assosiasiyası, Azərbaycan Çağdaş İncəsənət İnstitutu və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının yaradılması da 2021-ci ilin uğurlarındandır. Bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi də qarşıda duran vəzifələrdəndir.

### Beynəlxalq mədəni əməkdaşlıq

Ötən ilin beynəlxalq mədəni əməkdaşlıq mənzərəsinə nəzər salan nazir diqqətə çatdırdı ki, Azərbaycan ilə Gürcüstan arasında "Yaradıcılıqda qırmızı körpü" yaradılıb. İCESCO Baş direktoru ölkəmizə səfəri zamanı işğaldan azad edilmiş ərazilərimizə də səfər edib. Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" qlobal kampaniyası, Şuşa şəhərinin qarşıdakı illərdə İslam və Türk dünyasının mədəniyyət paytaxtları elan edilməsi ilə bağlı İCESCO və TÜRKSOY-la səmərəli əməkdaşlıq davam etdirilib. İCESCO-nun Şuşada regional ofisinin yaradılması təklifi də ötən il müzakirə edilib.

Anar Kərimov UNESCO-nun işğaldan azad edilmiş ərazilərimizə texniki heyət göndərmək məsələsində ikili standartlarla qarşılaşdıqlarını bildirdi. Dedi ki, ancaq mədəni irsimizin tanıdılması istiqamətində UNESCO ilə əməkdaşlıq davam etməkdədir. UNESCO ilə əməkdaşlıqda yeni pilot layihələrin hazırlandığını bildirən nazir təşkilatla əlaqələrin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi vurğuladı. Vurğuladı ki, UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınması məqsədilə "İpəkçilik və toxuculuq üçün ənənəvi ipək istehsalı", "Səbəf sənəti", "Pəhləvan – ənənəvi zorxana oyunları və idman növləri", "Molla Nəsrəddin şifahi xalq ədəbiyyatı", "Çay mədəniyyəti" və "Balaban sənətkarlığı və ifaçılıq sənətləri" nominasiya faylları üzrə müraciət ediləcək.

Anar Kərimov 2021-ci ildə Türkiyə, Gürcüstan, Özbəkistan, İtaliya və Misirə rəsmi səfər etdiyini də diqqətə çatdırdı.

### Media və kommunikasiya

Media və kommunikasiya sahəsində həyata keçirilən işlər barədə danışan nazir bildirdi ki, ənənəvi olaraq CNN və "Euronews" kanallarında il ərzində mədəniyyətimizi təbliğ edən çarxlar nümayiş etdirilib. Eləcə də nazirliyin Media və kommunikasiya şöbəsinin reallaşdırdığı "Mədəniyyətimizin simaları", "Xristian irsimizi tanıyaq", "İslam irsimizi tanıyaq", "Səhnədən səngərə: şəhidlər" və "Səhnədən səngərə: qazilər" layihələri ictimaiyyət tərəfindən maraqla qarşılanıb. "Mədəniyyətimin simaları" layihəsi üzrə 56 videoçarx hazırlanaraq təqdim olunub.

***

Sonra nazir Anar Kərimov çıxış üçün sözü Naxçıvan MR mədəniyyət naziri Natəvan Qədimovaya verdi. Natəvan Qədimova hesabatında qeyd etdi ki, muxtar respublikanın Mədəniyyət Nazirliyi tərəfindən il ərzində NMR Ali Məclisi sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələr icra edilib. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması əsasında "Nizaminin sirlər xəzinəsi" adlı tamaşanın onlayn premyerası keçirilib. Ümumilikdə nazirlik il ərzində 75 tədbir reallaşdırıb. Nazirliyin təşkilatçılığı ilə solo oxuma – vokal və xanəndəlik üzrə muxtar respublika müsabiqəsi gerçəkləşib.

***

Kollegiya iclasında Azərbaycan Mədəniyyət Nazirliyinin 2021-ci ilə dair hesabatı təsdiq edildi.

Sonra 2022-ci ilin I yarısı üzrə İş planı müzakirə olundu. Müzakirələrdə Milli Kitabxananın direktoru Kərim Tahirov və Teatr Xadimləri İttifaqının sədri Azər Paşa Nemətov öz təkliflərini səsləndirdilər.

Çıxışlardan sonra nazir Anar Kərimov İş planına təkrar baxılmasının vacibliyini qeyd etdi. Diqqətə çatdırdı ki, irəli sürülən layihələr real büdcəyə əsaslanmalıdır. Buna görə də şöbələr iş planını yenidən nəzərdən keçirərək təqdim etməlidirlər.

Sonda nazir bir daha 2022-ci ildə kollegiya üzvlərinə uğurlar arzulayaraq dedi: "Bu il də fəaliyyət və hədəflərimiz məqsədyönlü olmalı və hər birimiz bunun üçün səmərəli fəaliyyət göstərməliyik. Çalışmalıyıq ki, 2022-ci ildə "Şuşa İli" fəaliyyətimizdə ana xətt kimi özünü göstərsin. Mədəniyyət sahəsində çalışan bütün əməkdaşlara cansağlığı və uğurlar arzulayıram".

# Layihəyönlü fəaliyyət

## İdarəçiliyin təkmilləşdirilməsi və gücləndirilməsinə xidmət edəcək

Mədəniyyət Nazirliyi layihəyönlü fəaliyyətə başlayır. Layihəyönlü fəaliyyətin məqsədi ilk növbədə idarəçiliyin təkmilləşdirilməsi və gücləndirilməsidir.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bu sözləri yanvarın 14-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyi daxilində layihəyönlü idarəçiliyə keçid və 2022-ci il üçün nəzərdə tutulmuş layihələrlə bağlı təqdimatdan öncə jurnalistlərə açıqlamasında bildirib.

Elnur Əliyev qeyd edib ki, Mədəniyyət Nazirliyinin strategiyası Azərbaycan cəmiyyətində dəyər carçısı olmaqdır: "İstəyirik ki, bunu nazirliyin strategiyası və baxışının həyata keçirilməsində effektiv bir alət kimi inkişaf etdirək. Həmçinin nazirliyin tabeliyindəki qurumlar Azərbaycanın mədəniyyət tarixindən, ədəbi və irsindən gələn dəyərləri yaşadaraq gələcək nəsillərə ötürsün. Bununla da azərbaycançılığın özəyi olan dəyərlərin və fikirlərin davamlılığı təmin edilsin. Ümumi islahat çərçivəsində elan etdiyimiz yanaşmalardan ən vacibi layihə idarəçiliyi yanaşmasıdır. Bununla bağlı artıq bütün sənədlər hazırlanıb və deyə bilərəm ki, ilk dəfə olaraq Mədəniyyət Nazirliyinin tarixində belə bir yanaşmanın tətbiqinə başlanılıb. Bundan sonra bütün fəaliyyətimizi layihə idarəçiliyi vasitəsilə həyata keçirəcəyik".

Layihə idarəçiliyinin üstünlükləri barədə məlumat verən Elnur Əliyev bildirdi ki, bu artıq təsbit olunmuş elmi yanaşmadır: "Bütün dünyada qarşıya qoyulan məqsədlərə çatmaq üçün ən çox istifadə olunan metodologiyadır. Üstünlüyü ondan ibarətdir ki, hər bir layihənin konkret məqsədləri var və məhdud resurslarla həyata keçirilir. Layihə yanaşması verilən resurs məhdudiyyətləri çərçivəsində bu məqsədlərə nail olmaq üçün ən səmərəli yoldur. Biz də bunun tətbiqinə çalışırıq. Bunun nazirlik sistemində əlavə üstünlükləri də var. Bu yanaşma nazirlik çərçivəsində koordinasiyanı, yeni şöbələrin bir-biri ilə əlaqələrini, məlumat paylaşımını gücləndirir. Digər tərəfdən, layihə yanaşması kadr potensialının gücləndirilməsi üçün də vacib bir mərhələdir. Belə ki, əməkdaşlar artıq layihə alətləri ilə işləyərək layihə meneceri kimi təkmilləşəcəklər. Bu da, təbii ki, bizim strategiyamızın əsas məqsədlərindən biri olan insan kapitalının inkişafı baxımından çox vacib addımdır".

Nazirin birinci müavini bu gün təqdim edilən proses və prosedurların hələlik nazirlikdaxili layihələrə aid olduğunu söylədi. O, həmçinin qeyri-hökumət təşkilatları (QHT) ilə əməkdaşlığı da layihəyönlü etmək istədiklərini diqqətə çatdırdı: "Bu istiqamətdə də iş aparılır və yaxın zamanlarda onun meyarları da hazır olacaq. Bu gün biz çalışırıq ki, Mədəniyyət Nazirliyində idarəçiliyi təkmilləşdirək. İdarəçiliyin ilk mərhələsi, təbii ki, daxili idarəçilikdir. Bunun ən böyük üstünlüyü şəffaflıqdır. Çünki artıq hər bir qərarı qəbul etmədən öncə bütün cəlb olunan və bu fəaliyyətdə iştirak edən tərəflər o layihədən xəbərdar olacaqlar. Layihəyönlü fəaliyyətin vacib mərhələsi isə layihə sənədidir. Artıq hər bir təklif, hər bir təşəbbüs layihə sənədi əsasında formalaşdırılacaq və bu sənəd bütün tərəflərlə müzakirə ediləcək. Bu eyni zamanda ümumi koordinasiyanı gücləndirəcək, şəffaflıq yaradacaq".

Elnur Əliyev dedi ki, korporativ dünyadan fərqli olaraq Mədəniyyət Nazirliyi-



nin qarşısında müəyyən öhdəliklər var: "Korporativ dünya layihələrini maliyyə baxımından dəyərləndirirsə, bizim dəyərləndirmə sistemimiz başqadır. Çünki bizim cəmiyyət qarşısında öhdəliklərimiz var. Bu öhdəlik mədəniyyət dəyərlərimizin təbliqi və təşviq edilməsidir ki, bu da bizim sənədlərimizdə əks olunub".

Daha sonra Mədəniyyət Nazirliyinin 2022-ci il üçün nəzərdə tutulmuş layihələrinin təqdimatı keçirildi.

**Nurəddin**

# Türk dünyası təşkilatlarının əməkdaşlığı

## Yeni layihələr reallaşacaq

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin sədri Mücahit Demirtaşın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Fondun prezidenti qonaqları salamlayaraq, üzv dövlətlərlə, o cümlədən qardaş Türkiyə ilə sıx əlaqələrin təşkilat üçün əhəmiyyətindən bəhs edib. O, Türk Dövlətləri Təşkilatında sədrliyin Türkiyəyə keçməsinin türk dövlətləri arasında qarşılıqlı tərəfdaşlığın inkişafına böyük töhfə verəcəyini vurğulayıb. Fondun yarandığı vaxtdan Türk Dünyası Mühəndislər və Memarlar Birliyi ilə



əməkdaşlıq qurduğunu deyən Günay Əfəndiyeva ötən il "Qarabağın keçmişi, bu günü və gələcəyi" mövzusunda birgə təşkil olunan beynəlxalq videokonfransı xatırladıb, yeni layihələrin həyata keçirilməsinin vacibliyini qeyd edib.

Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin sədri Mücahit Demirtaş Azərbaycana səfərindən və görüşdən məmnun olduğunu deyərək, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə əməkdaşlığın əhəmiyyətini qeyd edib. O, 2022-ci ilin Azərbaycanda "Şuşa İli" elan olunması ilə əlaqədar, Qarabağda erməni vandalizmi nəticəsində dağıntılara məruz qalmış abidələrin bərpası, eləcə də digər istiqamətlərdə birgə işlərin görülməsinin önəmini vurğulayıb.

Mücahit Demirtaş Günay Əfəndiyevanın Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin fəxri üzvü seçildiyini bildirən üzvlük diplomunu ona təqdim edib.

# Kitabxanada tanınmış uşaq yazarı ilə görüş

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yanınmış uşaq yazarı Solmaz Amanova ilə Y.Kovalyov adına 229 saylı orta məktəbin 3-cü sinif şagirdlərinin görüşü keçirilib.



Görüşdən öncə məktəblilər kitabxana ilə tanış olublar.

Solmaz Amanova uşaqlarla görüşdə İkinci Qarabağ müharibəsində Azərbaycanın şanlı Qələbəsindən sonra qələmə aldığı "Şuşanın sehrli açarları", "Cəsur ayı və dostları", "İlmənin macəraları" kitabları haqqında ətraflı məlumat verib. Yazar Azərbaycan xalqının zəngin mədəni irsini əks etdirən "İnsan iz qoyur" kitabı barədə də danışaraq məktəblilərin suallarını cavablandırıb.

Sonda uşaqlar əl-ələ tutaraq müəllifin sözlərinə bəstələnmiş mahnını ifa ediblər. Görüş məktəblilərlə yazıçının xatirə şəkilləri çəkdirməsi ilə başa çatıb.

№4 (1877)
19 yanvar 2022
www.medeniyyet.az

# Xalqın azadlıq və ləyaqətini ucaldan tarix

## Bölgələrdəki mədəniyyət müəssisələrində 20 Yanvar tədbirləri



Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində tariximizin qəhrəmanlıq səhifəsi olan 20 Yanvarın 32-ci ildönümünə həsr olunmuş tədbirlər keçirilir.

Lənkəran Regional Mədəniyyət İdarəsi (RMİ) Lənkəran şəhər Heydər Əliyev Mərkəzi tərəfindən Lənkəran şəhərində yerləşən ümumi təhsil müəssisələrinin şagirdləri arasında "20 Yanvar – şərəf və qürur günümüz!" adlı inşa müsabiqəsi keçirilir. Müsabiqənin nəticələri Lənkəran RMİ-nin, Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin sosial şəbəkə səhifələrində və Heydər Əliyev mərkəzlərinin informasiya portalında yayımlanacaq.

İdarənin tabeliyindəki Astara rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə "Qəhrəmanlıq tariximizin 20 Yanvar səhifəsi" adlı sənədli film nümayiş etdirilib.

Sabirabad RMİ-nin təşəbbüsü ilə 20 Yanvara həsr olunmuş "Torpaq uğrunda ölənlər" adlı kompozisiya nümayiş olunub. Sabirabad rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən A.İsgəndərov adına Xalq teatrının hazırladığı kompozisiya (quruluşçu rejissor Nicat Əliyev) tamaşaçılara şəhidlərimizin xatirəsinin əbədiliyini aşılayıb. Sonda idarə rəisi Fərid Qurbanzadə mədəniyyət mərkəzinin kollektivinə yaradıcı fəaliyyətlərində uğurlar arzulayaraq bu tipli tədbirlərin davamlı olmasının zəruriliyini qeyd edib.

İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev Mərkəzi, rayon Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "20 Yanvar – Zəfərə aparan yol" mövzusunda inşa-yazı müsabiqəsi keçirilib. Müsabiqədə rayonun ümumtəhsil məktəblərinin 40-a yaxın şagirdi iştirak edib. Qaliblər rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom və medallarla mükafatlandırılacaq.

Ağsu rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə 20 Yanvarın 32-ci ildönümünə həsr edilən rəsm sərgisi açılıb. Ağsu Mədəniyyət sarayının foyesində təşkil olunan "20 Yanvar milli qürur günümüzdür" adlı sərgidə uşaq, yeniyetmə və gənclərin əl işlərindən ibarət rəsmlər nümayiş olunub. Müəlliflər rəsmlərdə xalqımıza qarşı törədilən faciəni əks etdirməklə yanaşı, həm də insanların azadlıq uğrunda mübarizə əzmini, bu yolda dönməzliyini təsvir etməyə çalışıblar.





Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində "20 Yanvar: müasir tariximizin şəhid qanı ilə yazılmış hünər səhifəsi" adlı tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, 1990-cı ilin Yanvar hadisələri nə qədər faciəli olsa da, xalqımızın iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. 20 Yanvar faciəsi Azərbaycan xalqının öz azadlığı və suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir. Odur ki, xalqımız 32 il əvvəl baş verən hadisələri qürur və şərəf günü kimi xatırlayır.




Xaçmaz RMİ Quba rayon MKS-nin Bağbanlı qəsəbə, Alpan, Amsar və Xucbala kənd kitabxanalarında "20 Yanvar – qəhrəmanlıq və qürur günüdür" adlı tədbirlər təşkil olunub.

Ağstafa RMİ Ağstafa rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə 20 Yanvara həsr olunmuş kitab sərgisi nümayiş etdirilib. Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası şəhər istirahət parkında "Xalqın azadlığını, şərəf və ləyaqətini ucaldan tarix" adlı səyyar sərgi təşkil edib. Sərgidə 20 Yanvar qurbanlarının xatirəsinə həsr olunmuş 70-dən çox kitab və dövri mətbuat materialı nümayiş olunub.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Masallı nümayəndəliyinin birgə təşkilatçılığı ilə anım tədbiri keçirilib. Çıxışlarda 20 Yanvarın xalqımızın tarixində yerindən söz açılıb. Qeyd olunub ki, keçmiş sovet imperiya ordusu qarşısına əliyalın çıxaraq canlarından keçmiş şəhidlər müasir tariximizin qəhrəmanları kimi xatırlanır.

Şəmkir RMİ Daşkəsən rayon Heydər Əliyev Mərkəzində 20 Yanvarın 32-ci ildönümünə həsr olunmuş sərgi təşkil olunub. Sərgidə mövzu ilə bağlı fotoşəkillər və kitablar yer alıb.




# Müxtəlif səpkili xəbərlər

İsmayıllı RMİ Ağsu rayon Heydər Əliyev Mərkəzində gənclər üçün "İlboyu bilik" layihəsi çərçivəsində təlimlər davam edir. Növbəti təlim "Kompüter texnologiyası və kargüzarlıq işi" üzrə keçirilib. Könüllü təlimçi Nigar Nağıyeva gənclərə proqramlar üzrə bilgilər verib.

Şəki RMİ Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri Azərbaycan Gənclər İttifaqı və Azərbaycan Rəqs Assosiasiyasının birgə təşkil etdikləri "Ümid-2022" incəsənət və rəqs müsabiqəsinin qalibi və laureatı adını qazanıblar. Müsabiqənin yekunlarına görə, məktəbin "Zəfər" ansamblı qarışıq alətlər nominasiyası üzrə 1-ci yerə layiq görülüb. Solo yarışmada məktəbin tar şöbəsinin 4-cü sinif şagirdləri İbrahim Mustafayev 1-ci, Məhəmməd Yusifov 2-ci, fortepiano şöbəsinin 3-cü sinif şagirdi Elnur Pirməmmədli 2-ci yer tutaraq medallarla təltif olunublar.



Şuşa Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivi tərəfindən Bərdə RMİ Tərtər rayon Mədəniyyət Mərkəzində Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası nümayiş etdirilib. Tamaşa rayon ərazisində yerləşən hərbi hissələrin əsgərləri, Vətən müharibəsi iştirakçıları, qazilər və rayon ictimaiyyətinin nümayəndələrinə təqdim olunub. Tamaşadan əvvəl rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və Şuşa Dövlət Musiqili Dram Teatrının direktor müavini Elnurə Abdullayeva çıxış ediblər. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimovdur. Rolları Əməkdar artist Azad Məmmədov, Püstəxanım Zeynalova və başqaları oynayıblar.

Sabirabad RMİ və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Salyan Dövlət Kukla Teatrı tərəfindən Sabirabad rayon Mədəniyyət Mərkəzində "Çal-oyna" nağıl-tamaşası nümayiş olunub. Şair-dramaturq İsgəndər Coşqunun qələmə aldığı mənzum nağıl-pyes əsasında hazırlanan tamaşada heyvanların dili ilə hiyləyə, yalana nifrət, zəhmətə, düzlüyə, etibara və əməyə rəğbət aşılanır. Səhnə əsərinə Əməkdar mədəniyyət işçisi Laləzar Hüseynova quruluş verib, quruluşçu rəssam Ceyhun Rüstəmbəyli, musiqi tərtibatçısı Təzahür Mehdiyevdir.



Sumqayıt RMİ Qara Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbinin fortepiano ixtisası üzrə şagirdləri də "Ümid 2022" incəsənət müsabiqəsində uğur qazanıblar. Aysu Məmmədzadə 1-ci, Ayla Pənahova, Səid Vəlizadə 2-ci, Atilla Quliyev, İnci Vəlizadə isə 3-cü yerə layiq görülüblər.

***

Ucar rayonunun Ramal kəndində Birinci Qarabağ müharibəsində şəhid olan Etimad Məmmədovun xatirəsinə tikilən bulağın açılış mərasimi keçirilib. Açılış mərasimində rayon İcra Hakimiyyətinin məsul işçiləri, ictimaiyyət nümayəndələri, kənd sakinləri, şəhidin yaxınları iştirak ediblər. Çıxış edənlər Etimad Məmmədovun şərəfli döyüş yolundan danışıb, onun elə-obaya bağlı cəsur bir insan olduğunu söyləyiblər.




Hacıqabulun Udulu kəndində şəhid atası şəhidlərin xatirəsinə park salıb, abidə kompleksi inşa etdirib. Parkın girişində Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Burada zirvə simvolu olan qartal heykəli də ucaldılıb, şəhidlərin xatirəsinə bulaq inşa edilib. Parkın ərazisində ibadət otağı da yaradılıb. Şəhid atası Şöhrət Qasımov deyib ki, parkda bütün şəhidlərin şəkilləri yer alacaq.

Hazırladı: N.Məmmədli

# "Şuşa İli"ndə Şuşadan ilk reportaj

əvvəli səh. 1-də

Qısa vaxtda Heydər Əliyev Fondu tərəfindən dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri görülüb. Şəhərdə Üzeyir Hacıbəylinin heykəli və Molla Pənah Vaqifin büstü qoyulub. Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa, Saatlı məscidlərində və Mehmandarovların malikanə kompleksində bərpa işləri aparılır. Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati bina müasir şəkildə yenidən qurulur.

Xalq artisti Bülbülün erməni barbarlığına məruz qalmış ev-muzeyi ötən il Prezident İlham Əliyevin tapşırığına əsasən Polad Bülbüloğlunun bilavasitə iştirakı ilə bərpa edilib. Muzeyin direktoru – əslən Şuşadan olan Fəxrəddin Hacıbəyli söhbət zamanı illərdir həsrətində olduğu baba yurduna gəlişi, muzeyin fəaliyyəti, mədəniyyət paytaxtımızın inkişafı ilə bağlı fikirlərini bizimlə bölüşür: "Mən Şuşada doğulmasam da, babam, nənəm buralıdırlar. Mərdinli məhəlləsində çörəkçi Muxtarın nəvəsiyəm. Şuşa mənim doğma yurd yerimdir. İllərdir Qarabağımızın, Şuşamızın həsrəti ilə yaşamışıq. Odur ki, ilk dəfə Şuşaya gələrkən hansı hisslər keçirdim, onu ifadə edə bilmirəm. Bu şəhərdə ata-baba yurdum var. Bu torpaq mənim üçün əzizdir. Bunlar adi hisslər deyil. Elə duyğular var ki, onu sözlə ifadə etmək olmur...".






F.Hacıbəyli Şuşanın tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi mədəni həyatına qovuşması istiqamətində görülən işlərə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək bildirir ki, Şuşa təkcə şuşalılar, qarabağlılar, azərbaycanlılar üçün deyil, bütün Türk dünyası üçün dəyərli bir şəhərdir. 2022-ci ilin "Şuşa İli" elan edilməsi mədəniyyətimizin beşiyi, Qarabağımızın incisi sayılan Şuşanın inkişafına böyük təkan verəcək. Dünya 2022-ci ildə mədəniyyət paytaxtımızda baş verən möhtəşəm hadisələrin şahidi olacaq. Bu baxımdan 2022-ci ilin "Şuşa İli" elan olunması həm də mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi, incəsənətimizi, musiqimizi, muğam sənətimizi dünyaya bəyan etməkdir.

... Axşam düşür. Şuşada vaxt sanki daha tez keçir. Bu torpağın, bu şəhərin sanki bir sehri, möcüzəsi var. İnsan buradan ayrılmaq istəmir. Ancaq bir daha qayıtmaq üçün ayrılırıq. Ümid edirik ki, dağlar qoynundakı bu gözəl şəhərə növbəti səfərimizdən daha böyük təəssüratlarla dönəcəyik.

YOLUMUZ QARABAĞA

# Avtobus marşrutları açılır

Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə yanvarın 24-dən etibarən ilk müntəzəm avtobus marşrutlarının açılması gözlənilir. İlkin mərhələdə Şuşa və Ağdama avtobusların hərəkəti üçün şərait yaradılacaq. Bu istiqamətlərdə Bakı–Şuşa, Bakı–Ağdam, Əhmədbəyli (Füzuli rayonu) – Şuşa, Füzuli Beynəlxalq Hava Limanı – Şuşa və Bərdə–Ağdam marşrutları istifadəyə veriləcək.

Reyslər Əhmədbəyli–Şuşa marşrutu üzrə həftədə 4 dəfə, digər istiqamətlər üzrə 2 dəfə olmaqla təşkil ediləcək. Füzuli Beynəlxalq Hava Limanı – Şuşa avtobus marşrutunun fəaliyyəti təyyarə aviareysləri ilə uzlaşdırılacaq.

İşğaldan azad olunan ərazilərə səyahət etmək istəyənlər biletləri elektron qaydada əldə edə biləcəklər. Bu məqsədlə "yolumuzqarabaga.az" portalı yaradılıb. Bu işlər Elektron Hökumətin İnkişaf Mərkəzinə həvalə edilib.

Qeyd edək ki, məlumat bazasında hər bir sərnişinin bu ərazilərə girişləri üçün xüsusi icazəsi, həmçinin COVİD-19 əleyhinə peyvənd edilmələri barədə də məlumatlar avtomatik şəkildə əks olunacaq.

Marşrut avtobuslarının hərəkəti polislər tərəfindən müşayiət ediləcək. Mümkün mina təhlükəsi ilə bağlı ANAMA tərəfindən sürücülərə təlimlər keçirilib. Sərnişinlər üçün avtobuslarda videotəlimat nümayiş olunacaq.

# Cavad xan səhnə əsərində xatırlanıb



Yanvarın 15-də Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin və "Cavad xan" Tarix-Mədəniyyət Fondunun təşkilatçılığı ilə Gəncədə Cavad xanın anım günü keçirilib. 1804-cü il yanvarın 4-nə keçən gecə çar Rusiyasının işğalçı qoşunları ilə döyüşdə həlak olan Cavad xan Ziyadoğlu 18 il Gəncə xanlığına rəhbərlik edib. Onun doğma yurd uğrunda şəhidliyi nəsillərə örnək bir tarixdir.

Mərasim iştirakçıları Cavad xanın məqbərəsini ziyarət ediblər. Cavad xanın ruhuna dualar oxunub.

Sonra Gəncə Dövlət Dram Teatrında yazıçı-dramaturq Nüşabə Əsəd Məmmədlinin "Cavad xan" əsərinin tamaşasına baxış olub.

Nümayişdən öncə çıxış edən Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov tamaşanın ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib. Gəncə Dövlət Dram Teatrının yeni binasının inşasına görə ölkə başçısına minnətdarlıq ifadə olunub.

Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, "Cavad xan" Tarix-Mədəniyyət Fondunun birinci vitse-prezidenti Müzadil Həsənov və başqaları çıxış edərək Cavad xanın qəhrəmanlığı, onun Gəncənin tarixindəki silinməz izindən söz açıblar.

Sonra tamaşa göstərilib. Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərov, rejissoru Elşad Əhmədov, quruluşçu rəssamı Mirzə Mehdi, musiqi tərtibatçısı Sevda Əliyeva, rejissor assistenti Nişanə Qurbanovadır. Cavad xan rolunda Əməkdar artist Elxan Yunis çıxış edib.

Qeyd edək ki, böyük maraqla qarşılanan tamaşanın premyerası bu yaxınlarda keçiriləcək.

# Tarix-Diyarşünaslıq Muzeyinin eksponatları bərpa olunub



Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi şəhər və rayonlarda yerləşən muzeylərin fondlarındakı eksponatların bərpa və konservasiyası ilə bağlı işlər həyata keçirir.

Elmi Bərpa Mərkəzindən verilən məlumata görə, bu günlərdə Gəncə Tarix-Diyarşünaslıq Muzeyinin toplusuna məxsus eksponatların bir qisminin (17 ədəd) bərpa və konservasiyaya ehtiyacı olduğu müəyyən edilib.

Bununla əlaqədar eksponatlar Elmi Bərpa Mərkəzinin ali dərəcəli bərpaçıları tərəfindən "Azərbaycan Respublikası muzey sərvətlərinin və muzey kolleksiyasının uçotu və mühafizəsinə dair Təlimat"da müəyyən edilmiş qaydada qısa müddət ərzində yerində bərpa olunub.

# Yaradıcılıq zəminli görüşlər

## Mədəniyyət nazirinin birinci müavini gənc teatr sənətçilərini, habelə bəstəkar və musiqişünasları dinləyib







Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev yanvarın 13-də gənc teatr xadimləri ilə görüş keçirib. Görüş Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) baş tutub.

Əvvəlcə ATXİ-nin sədri, Xalq artisti Azər Paşa Nemətovla birlikdə burada fəaliyyət göstərən yaradıcılıq laboratoriyasına, Mustafa Mərdanov səhnəsinə baxış keçirilib.

Nazirin birinci müavini Elnur Əliyev paytaxtdakı həm dövlət, həm də özəl teatrlarda çalışan gəncləri bir arada görməkdən məmnunluq duyduğunu vurğulayıb. Mədəniyyətimizin dayanıqlı inkişafı məqsədilə nazirlik tərəfindən aparılan islahatlardan danışan Elnur Əliyev bu sahənin idarə edilməsində insan resurslarının müasirləşdirilməsi, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması, müasir tələblərə cavab verən və insan inkişafına yönəlmiş mədəniyyət infrastrukturunun qurulması üçün yaradıcı gənclərin dəstəyinə ehtiyac duyulduğunu bildirib. O, həmçinin teatr sənətçilərinin intellektual potensialını, ixtisas bacarıqlarını inkişaf etdirmək üçün Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən silsilə tədbirlərin, ustad dərslərinin əhəmiyyətini diqqətə çatdırıb.

Gəncləri prosesdə aktiv iştirak etməyə səsləyən Elnur Əliyev daha sonra sözü onlara verib. Gənc teatr aktyorları, rejissorlar və teatrşünaslar Azərbaycan teatrının bugünkü vəziyyəti barədə fikirlərini bölüşüblər. Onlar teatrın inkişaf etməsi, qlobal arenaya çıxması və yeni ideyalara açıq olması barədə arzu və təkliflərini nazirliyin nümayəndələrinə təqdim ediblər.

Görüşün sonunda Elnur Əliyev gənclərə yaradıcı fəaliyyətdə uğurlar arzulayıb.

***

Nazirin birinci müavini Elnur Əliyevin yaradıcılıq zəminli daha bir görüşü yanvarın 14-də bir qrup bəstəkar və musiqişünasla keçirilib.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadənin də iştirak etdiyi görüşdə gələcək layihələr, qarşıda duran hədəflər, mövcud problemlər geniş müzakirə olunub.

Elnur Əliyev həmçinin çıxışında Mədəniyyət Nazirliyinin yaradıcı yönlü təkliflərə açıq olduğunu, birgə əməkdaşlığın səmərəli olacağını xüsusi qeyd edib.

Bu qəbildən görüşlərin davamlı olması nəzərdə tutulur.

# İlin ilk muğam axşamı

## Şirulla İmanovun xatirəsi yad edilib



Beynəlxalq Muğam Mərkəzində (BMM) tanınmış tarzən və xanəndə Şirulla İmanovun (1909-1976) anadan olmasının 113-cü ildönümü münasibətilə xatirə gecəsi keçirildi.

Yanvarın 13-də gerçəkləşən xatirə gecəsində Xalq artistləri, tarzənlər Vamiq Məmmədəliyev, Ramiz Quliyev unudulmaz sənətkarla bağlı xatirələrini bölüşdülər. Onun vaxtilə Opera və Balet Teatrının səhnəsində oynadığı rollardan söz açıldı. Vamiq Məmmədəliyev Şirulla İmanovun bölgələrdəki konsertləri və Bakı kəndlərindəki toy şənliklərində çıxışları, məclislərdə həm tarzən, həm də xanəndə kimi şux ifalarını yada saldı. Bildirdi ki, məhz Şirulla İmanovun qoyduğu ənənədən sonra tarzən-xanəndə kimi çıxış edənlərin sırası genişləndi.

Tədbirin bədii hissəsində Əməkdar artistlər Təyyar Bayramov, İlkin Əhmədov, Səbuhi İbayev , Səbuhi Cəfərov (tarzən) və Rəşad İbrahimov (tar), xanəndə Səbinə Ərəblinin ifaları təqdim edildi. İfaçıları Rəşad İbrahimovun rəhbərliyi ilə BMM-in muğam ansamblı müşayiət edirdi.

Sonda tarzənin nəvəsi, jurnalist Vüqar İmanov çıxış edərək tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkürünü bildirdi.

Qeyd edək ki, vaxtilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist kimi fəaliyyət göstərən Şirulla İmanov ötən əsrin əvvəlində Bakıda keçirilən konsertlərdə uğurlu çıxışları ilə musiqisevərlərin rəğbətini qazanıb. Tarzənin bacarığını yüksək qiymətləndirən dahi bəstəkar Üzeyir Hacıbəyli opera tamaşalarında tar ifaçılığını ona həvalə edib. Ş.İmanov böyük səhnədə ilk dəfə 1916-cı ildə “Tağıyev teatrı”nda dövrün korifey sənətkarlarının iştirakı ilə səhnəyə qoyulan Z.Hacıbəyovun “Aşıq Qərib” və 1919-cu ildə Müslüm Maqomayevin “Şah İsmayıl” operasında tarzən kimi çıxış edib. Bu premyeraların uğurundan ruhlanan gənc Şirulla nə vaxtsa bu səhnədə özünü xanəndə kimi də sınayacağına inanır. Bir neçə ildən sonra o, Opera və Balet Teatrı və Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyət göstərir. Yuxarıda adları çəkilən əsərlərlə yanaşı, Ü.Hacıbəylinin “Şeyx Sənan” operalarında da həm vokal, həm də tar ifaçısı kimi tamaşaçıların rəğbətini qazanıb.

**Lalə**

# Xalq artistinin “Tale yazısı”

## Cəfər Namiq Kamalın 70 illiyinə həsr olunmuş kitabın təqdimatı

Yanvarın 17-də Bakı Kitab Mərkəzində tanınmış aktyor, Xalq artisti Cəfər Namiq Kamalın 70 illiyinə həsr olunmuş “Tale yazısı” kitabının təqdimatı keçirildi. Kitabın müəllifi teatrşünas və dramaturq Çingiz Ələsgərlidir.



Təqdimatda mədəniyyət xadimləri, sənətkarın həmkarları və dostları iştirak edirdi.

Əvvəlcə çıxış edən müəllif kitabda Cəfər Namiq Kamal yaradıcılığını araşdırmağa çalışdığını söylədi. Bildirdi ki, nəşrdə aktyorun teatr yaradıcılığı ilə yanaşı televiziya tamaşalarında yaratdığı obrazlar da əhatə olunub.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti Vidadi Qafarov çıxış edərək aktyorun təzadlı obrazlar qalereyasından söz açdı. Dedi ki, o, Dövlət Gənc Tamaşaçılar Teatrından sonra Akademik Milli Dram Teatrında da fərqli obrazlar yaradaraq öz sənətini sübut edib.

Xalq artisti Bəsti Cəfərova aktyorla Milli Dram Teatrının səhnəsində tərəf-müqabil olduğu tamaşalardan bəhs etdi: “Cəfər Namiq Kamal 1996-cı ildə bizim teatra gələndən onunla müxtəlif obrazlar yaratdıq. Bizim ilk duetimiz İlyas Əfəndiyevin “Dəlilər və ağıllılar” pyesinin tamaşasında oldu. Bu tamaşa 18 il teatrın repertuarında yer aldı...”.

Xalq artisti Tariyel Qasımov bildirdi ki, Cəfər Namiq Kamalın böyüklüyü səmimiliyindədir. Xalq artisti, rejissor Ramiz Həsənoğlu, Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Əli Əmirli və başqaları çıxış edərək 70 illiyinə həsr olunmuş kitabın işıq üzü görməsi münasibətilə yubilyarı təbrik etdilər. Ssenarist, rejissor Şərif Qurbanəliyev və ssenarist, dramaturq Əhməd Orucoğlu aktyorla yaradıcılıq əlaqələrindən maraqlı anları, müzakirə və sənət mübahisələrini dilə gətirdilər.

Aktyorun qardaşı, Xalq artisti İlham Namiq Kamal bildirdi ki, kitabda Çingiz Ələsgərli Cəfərin ən kiçik rollardan tutmuş böyük rollarına qədər bütün yaradıcılığını tədqiq edib: “Buna görə ona təşəkkürümü bildirirəm”.

Çıxışlardan sonra Cəfər Namiq Kamal Bakı Kitab Mərkəzinə və tədbirə qatılan hər kəsə təşəkkürünü ifadə etdi.

Qeyd edək ki, kitabda maraqlı başlıqlar altında aktyorun bu gün də uğurla davam etdirilən zəngin yaradıcılıq təcrübələri, canlandırdığı və ya müxtəlif səbəblərdən yaratmadığı obrazlar haqqında düşüncələri, başına gələn məzəli hadisələr, haqqında mətbuatda çap olunmuş resenziyalardan parçalar, fotolar və xatirələr toplanıb. Kitab geniş oxucu kütləsi, həmçinin aktyorluq, rejissorluq və teatrşünaslıq sahələri üzrə təhsil alan tələbələr üçün də maraqlı olacaq.

**L.Azəri**

# Ənənəvi formada yeni düşüncə axtarışları

## Teatr rəssamlarının təcrübə mübadiləsindən təəssürat və rəylər

Pandemiyalı ötən ilin son aylarının teatr üçün nisbətən aktiv keçdiyini deyə bilərik. Bu canlanmada premyeralar, ölkədaxili iki festivalla yanaşı, xarici səfərlərin də payı oldu. Bunlardan biri də noyabrın 28-dən dekabrın 7-dək Özbəkistanın paytaxtı Daşkənddə keçirilən postsovet ölkələrinin IV Gənclər Teatr Forumu idi. Mədəniyyət Nazirliyinin və Azərbaycan Teatr Xadimləri İttifaqının dəstəyi ilə ölkəmizi bu tədbirdə aktyorlar, rejissorlar və teatr rəssamları təmsil edirdi.



Bu səfərdə diqqətimi xüsusilə çəkən rəssamlar idi. Teatr sənətimiz üçün bu sahədə təcrübə mübadiləsi böyük əhəmiyyət kəsb edir. Akademik Musiqili Teatrın baş rəssamı Vüsal Rəhimov, Şəki Dövlət Dram Teatrının baş rəssamı Nicat Məmmədov və Azərbaycan Dövlət Kukla Teatrının baş rəssamı İqbal Əliyevlə söhbət əsnasında həm onların səfər təəssüratını öyrəndim, həm də ümumilikdə çağdaş dövrün teatr rəssamlığı və qarşılaşdıqları yaradıcı problemlərə ümumi nəzər salmağa çalışdıq.

Məlumat üçün deyim ki, onlar 10 gün ərzində həm müxtəlif proqramlarda iştirak ediblər, təşkil olunan sərgidə eskiz və rəsm nümunələrini təqdim ediblər, həm də forum çərçivəsində mühazirələrə, ustad dərslərinə qatılıblar. Eyni zamanda komanda halında təşkil edilən maarifləndirici proqramlarda öz təcrübələrini həmkarları ilə bölüşüblər.

Nəticə olaraq istedadlı rejissor Vladimir Pankovun laboratoriyasında iştirak etmək və onun forum çərçivəsində hazırladığı “Daşkənd çörəkli şəhərdir” tamaşasının bir parçasını qurmaq imkanı qazanıblar.

Qeyd edim ki, V.Pankovun laboratoriyasının iştirakçıları komandalara bölünərək bir həftə ərzində A.Neverovun romanı əsasında yeddi müxtəlif parça hazırlayıblar. Bunlar forumun təşkilatçılarının müəyyənləşdirdikləri “aclıq, yoxsulluq”, “dostluq, dost”, “geriyə yol yoxdur”, “qorxaqlıq (qorxu)”, “tale belədir – dözmək lazımdır”, “evə qayıdış” və “ev sahibi” mövzuları olub ki, azərbaycanlı teatr təmsilçiləri sonuncu mövzunu işləyiblər. Sonra V.Pankov bu parçaları birləşdirərək saatyarımlıq bir tamaşa hazırlayıb.

Səfər təəssüratından söz düşərkən hər üç rəssamın cavabı təxminən eyni oldu: “Səfər yaradıcılığımıza baxış, ən azı ətrafda baş verən teatr prosesləri ilə nə dərəcədə üzvi surətdə bağlı olub-olmadığımızı müəyyən etmək üçün yaxşı fürsət idi. Deyə bilərik ki, bu sahədə keçmiş sovet məkanındakı digər ölkələrdən geri qalmırıq. Ümumilikdə problemlər də, perspektivlər də oxşardır...”.

Həmsöhbətlərim səfər müddətində Özbəkistanın musiqili, kukla, opera və balet teatrlarında olduqlarını və prosesi yaxından izləmək imkanı qazandıqlarını da dedilər. “Elə isə fərq nə dərəcədə idi və sizcə, bu sahədə nələri öyrənməliyik” sualıma isə özünəməxsus cavablar verdilər. Özü də bu cavablarda hər hansı yaradıcı qısqanclıq yox, yaradıcılıq rəqabətli müqayisəni sezdim.

Akademik Musiqili Teatrın baş rəssamı Vüsal Rəhimov deyir ki, bundan əvvəl də müxtəlif proqramlarda iştirak etmişdim: “Yeni formaları asan mənimsəyirəm və yeniliklərə açıq adamam. Bu proqram çərçivəsində müxtəlif ölkələrdən gələn 10-a yaxın tamaşaya baxdım. Təbii ki, onların quruluşçu rəssam işi mənim üçün daha maraqlı idi. Ümumən gördüyüm əksər tamaşalarda yüklü, bəzən hansısa funksiyanı yerinə yetirməyən, tamaşa boyu, bir dəfə də olsun, istifadə olunmayan dekorasiyalar çox idi. Halbuki biz səhnədə qoyulan sadə butafor elementini – adi gül, ağac kolunu da mütləq üzvi surətdə tamaşaya bağlayırıq. Bu mənada siz deyən fərqli, müasir elementlərin tətbiqini də görmədim. Amma mübadilə, ən azı qonşu ölkələrdəki müxtəlif profilli teatrlarda çalışan həmkarlarımızın iş prinsipini, onların rejissorlar, tamaşanın heyəti ilə fəaliyyət mexanizmlərini bilmək üçün maraqlı idi...”.

Nicat Məmmədov: “Bir neçə istiqamətdə yaddaqalan, vacib proqramlar oldu. Soundramanın sirlərini öyrənmək, Pankovun iş prinsipi ilə tanış olmaq şansı qazandıq. Ən əsası da müasir teatrlarda ənənəni saxlamaqla yeniliklər gətirməyin özünəməxsus incəlikləri ilə tanış olduq. Qısa zamanda yeni formalar tapmaq və ideya üzərində kollektiv işin effektivliyini də təcrübədən keçirə bildik. Bütün hallarda teatr üçün maraqlı və yeni formaların tapılması və asanlıqla tətbiqi üçün bu kimi səfərlər vacibdir...”.

İqbal Əliyev: “Kuklaçı rəssam kimi mənim üçün ən vacib məqam əyani olaraq həmkarlarımın işlərini görmək idi. Odur ki, buradan gedərkən hər üçümüz əyani iş aparmışdıq. Bu qəbil səfərlər etdiyim hər ölkədə kuklaların hazırlanma texnologiyaları, yeni üslubların tətbiqi ilə daha çox maraqlanıram. Bu mənada çalışdım ki, proqramdan kənarda da olsa, nə isə öyrənib vaxtımı dolğun keçirim. Mənə görə, xüsusən Daşkənd Kukla Teatrının iş prinsipi maraqlı idi və gedib onunla yaxından tanış oldum. Onu da deyim ki, nə kuklaların hazırlanma texnikası, nə də quruluş həllindəki vizual elementlər bizdən öndə deyil. Xüsusən Rusiyadan olan teatr rəssamları ilə söhbət edərkən qrafik tətbiqlərdən işıq elementlərinə yeni tətbiqlərdən danışarkən onların maraqla qulaq asdıqların gördüm. Hərçənd mənə elə gəlirdi ki, onlar bizdən daha qabaqcıl formalar tətbiq edirlər. Hə, bir də bizdə çox vaxt tələb kimi eskiz çəkilməsini, bütün kukla və səhnə geyimlərinin ayrılıqda rəsm-təsvir olunmasını istəyirlər. Biz bunların hamısını edir və sonradan müvafiq muzeyə təhvil veririk. Onlardan bu barədə soruşduqda qrafik rəssamlıqla daha çox məşğul olduqlarını və bir az da hazır rekvizitlərə müraciət etdiklərini dedilər. Videoproyektorla işləmək, 3D proqramı ilə iş bizə də yad deyil. Amma onların da iş prinsipində ənənəvi rəssamlığı, hər teatrın, tamaşanın öz üslubunu qoruyub saxladığını gördük.

Bir şeyə təəssüf etdim ki, orada yeganə kukla teatrı rəssamı mən idim və müqayisəni özüm üçün də edə bilmədim. Amma onu da deyim ki, özbək dostlarımızın bizə münasibəti yüksək səviyyədə idi. Azərbaycana sevgini, qayğını yaxşı hiss etdirirdilər...”.

Vüsal Rəhimov: “Bir şey xüsusən diqqətimi cəlb etdi və onun bizdə də tətbiqini arzu edərdim. Bizdə daha çox səhnənin görünən hissəsi və tamaşa salonunun dəbdəbəsinə qaçırıq. Amma orda kulis və “səhnə cibi” dediyimiz əlavə bucaqlar çoxluğu, genişliyi diqqətimi çəkdi. Səhnədən də geniş məkan, şərait kulis üçün yaradılıb və hər kəs rahatlıqla – artistindən səhnə maşinistinədək rahat işini görə bilir. “Ciblər” o qədər genişdir, səhnələr elə dərindir ki, istənilən rekviziti rahatlıqla orada yerləşdirə və saxlaya bilirsən.

Ümumilikdə müasir incəsənət rəssamlığında sərhəd yoxdur və bu, teatrda da belədir. Əsas ideya ön plana çıxır və onun realizəsini istənilən üsul və üslubda edə bilərsən. Unutmaq olmaz ki, hər teatrın da öz üslubu və tələbatı var. İstənilən tərtibatı verə bilərsən. Amma bu, tamaşanın və səhnənin tələb və imkanlarına xidmət etməlidir. Bəzən elə olur ki, sənin düşüncənlə rejissorun tələbi üst-üstə düşmür. Bizdə məktəb dərindir, zəngindir, sadəcə, yeni formaları asan qəbul etmirik. Rejissorlarla rəssamların, dramaturqların dialoq zənciri möhkəm deyil. Heç də hər dramaturq, rejissor səhnənin imkanlarını, quruluşçu rəssamın yükünü aydın dərk etmir. Və ya əksinə, hər rəssam səhnəni, mətni, aktyorun yükünü qavrayıb ona uyğun həllə çalışmır...”.

Nicat Məmmədov: “Yeniliklərdən danışırıqsa, yaxşı olar ki, bu istiqamətdə kollektiv işə can ataq. Yəni yeni tamaşalar üzərində işləyərkən yük bərabər şəkildə bölünsün və beləcə, quruluşçu rəssamın tamaşadakı ağırlığı, iş yükü aydın təyin olunsun. Burada söhbət rejissorla rəssamın iş bölgüsündən daha çox onların dialoqundan gedir. Rejissor kimi rəssam da səhnəni, materialı, hətta mizanı da yaxından izləməli və onun sinxronluğunu quruluş tətbiqində nəzərə almalıdır. Unutmaq olmaz ki, rəssam tamaşanın əsas simalarından biridir, əlavə vasitəçisi yox...”.

İqbal Əliyev: “Nədənsə rejissorlar daha çox işi rəssamın görməsini istəyirlər, bütün vizual yükü ona göndərirlər. Bəzən isə ümumən rəssamın işinə qoşulmurlar, tam kənarda tamaşa qururlar. Belə olduqda da qəribə, bəzən də uğursuz bir calaq, sintezi görürük. Rejissorlar arada səhnənin ölçülərini, imkanlarını, forma və üslubu unudurlar. Ümumilikdə az sayda rejissorumuz var ki, rəssamın işini, səhnənin imkanlarını duyur və bilir...”.

**Həmidə Nizamiqızı**

№4 (1877)
19 yanvar 2022
www.medeniyyet.az

Fikrət Əmirov – 100

# Böyük şöhrətin astanasında



270 yaşlı Şuşa şəhərimizin adı ilə şərəflənən 2022-ci il eyni zamanda sənət irsiyyəti Şuşadan qaynaqlanan dünya şöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun 100 illik yubiley təntənəsi ilə yadda qalacaq. Böyük bəstəkar musiqi xəzinəmizə dəyərli töhfələr bəxş edib, şöhrəti yaxın-uzaq ölkələri dolaşan əsərlər yazıb. Yubiley ili görkəmli bəstəkarın zəngin yaradıcılığına silsilə yazılarla nəzər salmaq üçün zəmin olacaq. Bu yazıda musiqi xadiminin erkən yaradıcılıq dövrü haqqında söz açacağıq.

Fikrət Məşədi Cəmil oğlu Əmirov 22 noyabr 1922-ci ildə Gəncə şəhərində musiqiçi ailəsində dünyaya göz açıb. Dövrünün professional tarzəni və bəstəkar kimi tanınan atası musiqi, mədəniyyət beşiyimiz Şuşadan idi. Böyüdüyü zəngin sənət mühiti Fikrətdə erkən çağlardan musiqiyə maraq oyadır. Musiqiçi kimi yetişməsində isə atası Məşədi Cəmilin böyük təsiri olur.

Şuşanın zəngin musiqi mühitinin yetirməsi olan Məşədi Cəmil oğlu Əmirov (1875-1928) bir müddət İstanbulda yaşamış, professional musiqiçi kimi yetişmiş, bir sıra musiqi alətlərində ifa etməyi öyrənmişdi. Vətənə döndükdən sonra Gəncə şəhərində yaşamağa qərar verib. 1912-ci ildə "Heyratı" muğamını nota köçürüb və "Şəhbalı" jurnalında çap etdirib. Sonra Riqa şəhərində "Qrammofon" şirkətində bir sıra muğam və xalq mahnılarını vala yazdırır. O, bəstəkar kimi də özünü sınayıb, 1915-ci ildə "Seyfəl-mülk" adlı opera yazıb. 1923-cü ildə Gəncədə ilk musiqi məktəbini yaradır. Məktəbin açılışında Üzeyir Hacıbəyli də iştirak edir, tədris proqramlarının hazırlanmasında, eləcə də Moskva, Kiyev və Sankt-Peterburqdan musiqi mütəxəssislərinin dəvət edilməsində yardımçı olur...

Atası dünyasını dəyişəndə Fikrətin 6 yaşı vardı və onun üçün həyatın çətinlikləri də elə o andan başlanmışdı. Ancaq çətinliklər onu yolundan döndərmir. Elmə, sənətə sıx bağlanaraq ata yolunu ləyaqətlə davam etdirir. O, hələ şagird ikən məktəbin tədbirlərində fəallıq göstərir. Bakı və Gəncə şəhərlərində keçirilən uşaq olimpiadalarına qatılır. 1930-cu illərdə dahi Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Gəncədə təşkil edilən ansambla tar ifaçısı kimi daxil olur. Professional musiqiçi olmaq məqsədilə 1938-ci ildə Bakı şəhərinə gəlir. 1939-cu ildə Bülbül və Üzeyir bəyin məsləhəti ilə Azərbaycan Dövlət Konservatoriyasına (indiki BMA) daxil olur. Fikrət bundan sonra əsl yaradıcılıq fəaliyyətinə başlayır.

Onun da gənclik illəri qanlı-qadalı illərə – II Dünya müharibəsinə təsadüf edir. 1941-ci ilin noyabrında 19 yaşlı Fikrət Əmirov orduya çağırılır. Rabitəçilik kursunda təhsil almaq üçün 3 ay müddətinə Tiflis şəhərinə göndərilir. Kursu başa vurduqdan sonra 1942-ci ilin iyununda Voronej cəbhəsinə yola salınır. Anasına məktubunda yazırdı: "Sevimli anam və bacılarım! Mən sağ və salamatam. Mənim cəbhə yolum çox uzun oldu. Rostov vilayətini keçmişəm. Bu məktubu sizə Voronej vilayətinin Liski şəhərindən yazıram. Don çayını da keçmişik. Moskvaya yaxınlaşırıq. Hər tərəf qardır. Hələlik heç bir maraqlı hadisə baş verməyib. Məndən Musaya, Adilə xalaya və bütün dost və tanışlara salam yetirin. Öpürəm səni...".



Soldan sağa (oturanlar) — Tofiq Quliyev, Fikrət Əmirov, Məmməd Qurbanov (mədəniyyət naziri), Soltan Hacıbəyli, Süleyman Ələsgərov (ayaq üstə) Azər Rzayev, Boris Zeydman, Danil Danilov, Midhət Əhmədov

Fikrət Əmirov bacısı Yaxşı xanıma məktubunda isə təmas xəttində başına gələnlər barədə məlumat verir: "...Gecə qaranlığında ön xəttə yaxınlaşarkən təmiz alman danışığı eşitdik. Bir qədər sonra keçmiş dostlarımdan biri faşistlərin olduğu yeri təyin etmək istədi. Başını daşqayadan çıxarar-çıxarmaz qəflətən avtomat atəşləri səsləndi və dostum yerə sərələndi, güllə onun başını yaralamışdı. Dostumuzun başını sarıdıqdan sonra səhərədək orada qaldıq, ayaqlarımız tamamilə donmuşdu. Hava işıqlaşanda hissə əsgərləri bizi tapdılar və Bryansk şəhərinin hərbi hospitalına müalicəyə göndərdilər".

Araşdırmalarda qeyd edilir ki, xəstəxanada olarkən Fikrət Əmirov ağır mədə yarasından da əziyyət çəkir. Daha sonra cərrahi əməliyyat edilir. Sağaldıqdan sonra orada bir neçə musiqiçidən ibarət ansambl yaradır. Özü həm ansambla rəhbərlik edir, həm də rus xalq çalğı aləti olan mandolinada ifa etməyi öyrənir. Həmin ansamblın repertuarına Azərbaycan xalq mahnı və rəqslərini də daxil edən gənc musiqiçinin bu təşəbbüsü xəstəxana rəhbərliyi tərəfindən təqdirlə qarşılanır. O, bu ansamblla hospitalda tez-tez konsertlər təşkil edir, hərbçilərdə döyüş ruhunu artırır. Bəstəkar 1942-ci ilin noyabrında xəstəliyi ilə əlaqədar ordudan tərxis olunur. O, əvvəlcə Gəncəyə gəlir və bir ilə qədər burada qalır. Yaradıcılıq fəaliyyətini davam etdirir. Gəncə Dövlət Filarmoniyasında işə başlayır, eyni zamanda musiqi məktəbinə rəhbərlik edir. Sonra Gəncə Dövlət Dram Teatrında baş rejissor Mehdi Məmmədovla birgə işləyir. Bir neçə tamaşaya musiqi yazır. Lakin yarımçıq qalmış təhsili və yaradıcılıq eşqi onu 1943-cü ildə yenidən Bakıya qaytarır.

Fikrət Əmirov konservatoriyada təhsilini davam etdirməklə bərabər, yeni yaradıcılıq ideyalarını həyata keçirmək üçün çalışır. 1943-cü ildə cəbhə təəssüratlarını özündə əks etdirən "Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə" adlı simfonik poemasını yazır. Bəstəkar bu əsəri müharibədə həlak olmuş yaxın dostu Məmməd İsrafilzadəyə həsr edir...

Fikrət Əmirov gələcəkdə musiqi mədəniyyətimizin incisi olacaq, ölkəmizin, habelə dünyanın məşhur səhnələrinin bəzəyinə çevrilən əsərlər yazacaqdı. Bəstəkarın opera, balet, simfoniyalar, simfonik muğamlar, simfonik poemalar, süitalar, fortepiano üçün konsertlər və digər janrlarda əsərləri, eləcə də mahnıları, film və tamaşalara yazdığı musiqilər onun adını mədəniyyət və incəsənət tariximizə əbədi həkk edib...

**Savalan Fərəcov**

# Azər Dadaşovun 75 illiyinə daha bir sənət töhfəsi

Tanınmış bəstəkar, Xalq artisti, professor Azər Dadaşov dahi bəstəkar, geniş tələbə nəsli yetişdirən böyük pedaqoq Qara Qarayevin tələbəsi olub.

Onun musiqisinə rəngarənglik və çoxşaxəli janr dairəsi xasdır. 15 simfoniya, müxtəlif səpkili simfonik, vokal-simfonik, musiqili-səhnə əsərləri, 20-dən çox filmə yazılmış musiqi, kamera-instrumental və kamera-vokal, fortepiano və müxtəlif alətlər, o cümlədən xalq çalğı alətləri orkestri üçün əsərlərin müəllifidir. Bəstəkarın musiqisi nüfuzlu orkestrlər tərəfindən ifa olunub.

Ötən ilin dekabrında Azər Dadaşovun 75 illik yubileyi ilə bağlı silsilə tədbirlər keçirildi. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA), Azərbaycan Bəstəkarlar İttifaqında təşkil olunan konsertlərdə bəstəkarın kamera-instrumental, vokal və xor əsərləri təqdim edildi. BMA-da keçirilən tədbirdə Azər Dadaşovun yeni nəşr olunmuş fortepiano üçün "Lirik pyeslər" silsiləsinin təqdimatı da oldu.

Bəstəkarın 75 illik və Ü.Hacıbəyli adına BMA-nın 100 illik yubileyləri çərçivəsində pianoçuların "Azər Dadaşovun əsərlərinin ən yaxşı ifaçısı" V Beynəlxalq müsabiqəsi keçirildi. Müsabiqənin altı ölkədən – Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan, Qazaxıstan və İrandan iştirakçıları vardı. Qaliblərdən ikisi BMA-nın nəzdində məktəb-studiyanın məzunları idi: Nərgiz Kəngərli və Nuranə Zeynalova.

Azər Dadaşovun yubileyi münasibətilə daha bir tədbir 14 yanvarda M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirildi. Tədbirdə əvvəlcə Mədəniyyət Nazirliyinin sektor müdiri Vüqar Hümbətov nazir Anar Kərimovun yubilyara təbrik məktubunu oxudu.



Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor – Mustafa Mehmandarov) və Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər – Xalq artisti Gülbacı İmanova) çıxış etdiyi konsertin solistləri beynəlxalq müsabiqələr laureatları, pianoçular Nuranə Zeynalova və Nərgiz Kəngərli, vokalçı Sübhan Rüstəmov idi. Qeyd edək ki, BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasının məzunu olan hər iki pianoçu ifaçılıqla yanaşı məktəb-studiyada pedaqoji fəaliyyət də göstərirlər.

Konsertin proqramına bəstəkarın yeni əsərləri daxil edilmişdi: 44 günlük Vətən müharibəsinə həsr olunmuş "Zəfər çələngi", "Şuşa" simfoniyası, fortepiano və simfonik orkestr üçün ümummilli lider Heydər Əliyevə ithaf "Poema" (solist – Nuranə Zeynalova), 2 saylı fortepiano və orkestr üçün konsert (solist – Nərgiz Kəngərli).

Konsertdə Xalq artisti Gülbacı İmanovanın rəhbərliyi ilə Azərbaycan Dövlət Xor kapellasının ifasında qarışıq xor və böyük simfonik orkestr üçün "Vətənim Azərbaycan" 4 hissəli kantatası da təqdim olundu (xormeyster – Əməkdar artist Yulizana Kuxmazova, solist – Sübhan Rüstəmov).

İfa olunan əsərlərin əksəriyyəti Vətənə, Zəfərə, yurdumuza həsr olunmuşdu. Təntənəli, cəngi xarakterli musiqi, müharibədə itkilərimizin ifadəsi olan qüssəli ab-hava və lirik mövzular bir-birini əvəz edirdi. Göz önündə maraqlı obrazlar yaranırdı, milliliklə müasirliyin vəhdəti nəzərə çarpırdı.

Caz üslubunda yazılan fortepiano üçün 2 saylı konsert də maraqlı tapıntılarla zəngin idi. Burada caz üçün səciyyəvi olan ritm-intonasiyalar duyulurdu. Üçhissəli konsert texniki cəhətdən mürəkkəb əsərdir, lakin ifaçı onun öhdəsindən məharətlə gəldi.

İlk dəfə bu konsertdə səslənən "Şuşa" simfoniyasında qarşımızda Qarabağımız haqqında çoxhissəli sənət əsəri vərəqləndiyini gördük. Təbiət səhnələri, Cıdır düzündəki atların qaçışı, çobanların tütəklərinin səsi məharətlə musiqi dili ilə çatdırıldı.

Ulu öndərə lirik-patriotik ithaf da özünəməxsus musiqi dili ilə fərqlənirdi. Milli çalarlarla zəngin incə melodiya getdikcə dramatikləşir, rəqsvarı elementlər üzərində qurulan mövzu ilə qarşılıqlı inkişaf edir və əsər təntənəli surətdə tamamlanır.

"Vətənim Azərbaycan" kantatası bayram ab-havalı yubiley konsertini təntənəli, yüksək əhval-ruhiyyədə bitirdi.

Təqdim olunan bütün əsərlər həm janr, həm də obraz baxımından rəngarəng idi, ifaçılar isə öz növbəsində professional şəkildə onları təqdim edə bildilər.

Həmin axşam yenə Azər Dadaşovun musiqisinin işığına yığışmışdıq. Güman edirəm ki, bu işığı duyan hər kəs konsertdən zövq aldı...

**Aytən İbrahimova**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Gözəllik tərənnümçüsü

## 70 yaş qocalığın gəncliyidir...

Həsən Xasiyev həssas qəlbə, kövrək ürəyə, romantik duyğuya, güclü müşahidə qabiliyyətinə malik istedadlı şair-publisistdir. Gözəllik, həqiqət, təbiilik və səmimiyyət onun üçün meyardır, həyat kredosudur. Müxtəlif auditoriyalarda, məclislərdə, mətbuat səhifələrində, efirdə hər zaman dəyərli sözləri, fikir-mükalimələri ilə diqqət çəkir. Dövr, zəmanə, mühit, həyatda baş verən "qabarma" və "çəkilmə"lər ona öz təsirini göstərə bilmir. Buna görə də cəsarətlə deyə bilərəm ki, Həsən müəllimin şəxsiyyətində nümunə ola biləcək xeyli gözəl xüsusiyyətlər cəmləşmişdir. Bunlar haradan qaynaqlanır?

Gözəlliyə vurğunluq, heyranlıq hissi onu qəzetdə müxbir, radioda redaktor, muzeydə elmi işçi işləyəndən, daha dəqiq desək, gənclik illərindən müşayiət edir. Gözəlliklə ülfət, ünsiyyət onu saflaşdırıb, nəcibləşdirib, zövqünü formalaşdırıb, gözəl düşünməyə və gözəl yazmağa sövq edib.

Müdrik bir deyim var: "İnsanın adı onun məzmununu ifadə edir". Həsən adının mənası ərəbcə "gözəl", "yaraşıqlı" deməkdir. Və o, bunu əməli işləri ilə sübut edən şəxslərdən biridir. Həsən müəllim istedadlı qələm sahibi kimi gözəlliyə vurğun adamdır. Şairlərin gözəllik aşiqliyi hamıya gün kimi aydındır. Onların tanrısı gözəllikdir, sevgidir. Görürsən ki, gözəlliyə baxanda hər şeyi unudur, diqqəti yalnız onun seyrinə yönəlir, ətrafında baş verənlərə, ona dəyib toxunanlara əhəmiyyət vermir, çünki gözəlliklə üz-üzə, göz-gözədirlər...

Həsən müəllimin bu haqda maraqlı fikri var. Deyir ki, ulu Yaradan gözəlləri şairlər üçün yaradıb. Odur ki, mübarək qələmi ilə ilham pərilərinə olan borcundan çıxmağa çalışır. Axı, gözəlliyi görüb dəyərləndirmək Allah vergisidir.

Şair Həsən Xasiyev də təbiətin estetikasına, gözəllik fəlsəfəsinə dərindən bələd olduğundan, hikmətli sözü öz mənbəyini saflıqdan götürdüyündən dünyaya və insanlara da bu meyarla baxır. Onu çətin anlarda, dar məqamlarda Dostoyevskinin təbirincə desək, gözəllik xilas edib. Çexovun "insanın hər şeyi – üzü, sözü, geyimi gözəl olmalıdır" fikrinə istinad edərək yaşayır.

Həsən müəllim elinin, doğulduğu məkanın, ata ocağının, gözəl Qusar torpağının, Azərbaycanın vurğunudur. Başı Şahdağ kimi uca, qəlbi Samurtək coşqun, əli qələmli, ayağı oynaq "Ləzginka"lı yazardır. Mən həm də Həsəni, sözün həqiqi mənasında, ürəyi Vətənə sığmayan ziyalı adlandırardım. Bunun bünövrəsində yenə də Azərbaycan torpağına vurğunluq, heyranlıq hissi dayanır.

Doğulduğu Qusarın nəyi varsa əsrarəngizdir. Havası da, suyu da, təbiəti də, adamları da, qışı, yazı, yayı, payızı da. Burada möhtərəm Prezidentimiz İlham Əliyevin sözlərini xatırlamağın yeridir: "Qusarın çox gözəl, füsunkar təbiəti, çox gözəl iqlimi, gözəl insanları var...".

Həsən Xasiyevin "Gözəlliklər məskəni", "Gözəl insan", "Yazar", "Gördüm səni", "Vuruldum" bu və başqa şeirlərini "Gözəlləmələr" adlandırmaq daha doğru olardı.

Qusar onun üçün təkcə yaşayış, yurd yeri deyil. Ruhuna, könlünə, hisslərinə yaxın məbədgahdır. Burda Həsən müəllim sanki özünü nağıllar, möcüzələr aləmində hiss edir, rahatlanır, duyğulanır, ilhamlanır. Və əsrlərin o tayındakı ulu əcdadların səsini eşidir, onlarla söhbətləşir, keçmişlə bu günün vəhdətini, sintezini, körpüsünü görür, sələflərdən xələflərə ötürülən şanlı estafetini qəbul edir, üzərinə düşən müqəddəs vəzifələri düşünür, daşınır.

Harada çalışmasından, hansı vəzifəni daşımasından asılı olmayaraq heç vaxt qələmindən ayrılmamış, sözə yaxın olmuşdur. Gördüklərini, müşahidə etdiklərini poeziya süzgəcindən keçirərək bədii həqiqətə çevirmişdir.

"Şair sözə dəyər verməlidir", – deyir Həsən müəllim: "Bacarmırsa qələmini atmalıdır. Əsl şair insanların ürəyindəkilərini, demədiklərini və ya deyə bilmədiklərini deyə bilməli, qələmə almalıdır. Göydən enən sözə xəyanət Allaha xəyanətdir. Vətənə, xalqa dönüklük də burdan başlanır. Sözü urvatdan, şeiri şahlıqdan, kitabı taxtdan salanı, qardaşım olsa da, bağışlamaram. Özündə ziya ehtiva edən, nüvəsində işıq olan poeziya daim mənimlədir. Hətta bir vaxt dünyamı dəyişsəm belə, yer-göy arasında dolaşacaq ruhumu poeziyadan qoparmaq mümkün olmayacaq".

Doğru da söyləyir. Axı o, Nuh əyyamından qalma ruh adamıdır, insanlığını qoruyub saxlamış köhnə kişilərdəndir. Zənnimcə, bu, maddiyyatla yox, mənəviyyatla yaşayan şairin səmimi ürək sözləridir.

Həsən Xasiyev poeziyasının özəlliyi nədədir?

Şeirləri ahəngdardır, cazibədardır, başa düşüləndir. Qətiyyətlə söyləyə bilərəm ki, illər keçsə də, dəyəri azalmayacaq, çünki əzəli, əbədi, milli və bəşəri mövzulara müraciət etdiyindən, təzə, orijinal deyimə, özünəməxsus yola, üsluba, dəst-xəttə malik olduğundan sağlığında yazdıqları çoxunun ürəyinə yol tapıb ki, bu da hər yazara nəsib olan məsələ deyil.

*Gah qalxdım dağlara,*
*gah endim düzə,*
*Yetmiş yaş dayanıb*
*indi göz-gözə.*
*İnşallah, çataram*
*bir zaman yüzə,*
*Ümid də gözəldir,*
*güman da gözəl.*

Dəyərli sözlərdir. Arzumuz isə ad günlərinizdə, yubileylərinizdə sizi təbrik edib, təzə şeirlərinizi alqışlamaqdır, Həsən müəllim!

70 misralıq başqa gözəl bir şeiriniz də var: "Yaşadım".

*Sənət məbədini*
*sözlə hörmüşəm,*
*Xiridar kəsləri razı görmüşəm.*
*Siz deyin, ömrümü*
*necə sürmüşəm?*
*Xalqımdan öyrənə,*
*bilə yaşadım,*
*Mən belə yaşadım,*
*belə yaşadım.*

Xalqın bir nümayəndəsi və şairi kimi sualınızı cavablandırım.

Siz iki əsrdə (XX-XXI), iki quruluşda (sosializm, kapitalizm), iki dövlətdə (SSRİ və Azərbaycan), iki rejimdə (partokratiya və demokratiya), iki dost və qardaş xalqlar arasında (Azərbaycan və ləzgi), bir amalla – Vətənə, dövlətə, ədəbiyyata sədaqətlə xidmət etməklə, şair-tərcüməçi, yazıçı-publisist



kimi dünyanın ləzzətli çağlarında, köhnə, mərd kişilərin, gözəl insanların əhatəsində, zəngin, mənalı və sanballı bir ömür yaşamısınız.

70 yaşınız mübarək, Həsən müəllim! Fəxr edirik ki, başınız uca, üzünüz ağdır. Gördüyünüz xeyirxah işlərə görə ürəyimiz iftixar hissi ilə döyünür. Yaşamağa haqqınız var, çünki yaşamağı bacarırsınız. Çünki yaşadırsınız, yaradırsınız, çünki gözəl kitablarınızda həyat nəfəsi, yaşamaq həvəsi və əzmi var.

Deyirlər ki, 70 yaş qocalığın gəncliyidir. Sağ olun ki, siz ömrünüzün kamillik çağlarını yaşaya-yaşaya bu gün də əldə qələm gənclik eşqiylə, yorulmaq bilmədən çalışır və mənəvi dünyamızı gözəlləşdirirsiniz. Sizə cansağlığı, uğurlar və fərəhli günlər arzusuyla…

**Cabir Albantürk**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist**

# Təvazökar yaradıcılıq

Mürəkkəb həyat materiallarını sənətə gətirmək, qeyri-normal hadisələri baməzə şəkildə (məntiqli formada) gülüş hədəfinə çevirmək, səhnədə təhlil etmək yaradıcılıq təxəyyülündən əlavə intuisiya, istedad, böyük zəhmət və bacarıq tələb edir. Əməkdar artist, tanınmış aktrisa Nəcibə Behbudova da uzun illər Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsindən çoxsaylı tamaşaçısına ictimai həyatın qaynağından yararlandığı hadisələri məntiqli formada, özünəməxsus ştrixlərlə çatdırdı, güldürdükcə düşündürdü...

Ətraf mühitə rəng qatan, işıqlandıran incəsənət aləmini ucu-bucağı görünməyən ümmana bənzətmək olar. Hər bir istedad sahibi öz gəlişi ilə sənət dəryasını bir qədər zənginləşdirir. Nəcibə Behbudova da teatral rolları, kino obrazları fonunda fərdi bacarığını təsdiqləməyə, maraqlı, məzmunlu yaradıcılığı ilə qəlblərdə iz salmağa müvəffəq oldu, düşüncələrdə, qəlblərdə yaşadı. Həyatı bildiyi qədərilə sənətə gətirən, irili-xırdalı rollarda sənət meyarını, bilik və bacarığını sübut edən aktrisanın anadan olmasının 107-ci ildönümündə (1914-1999) ömür yoluna, sənət dünyasına nəzər salırıq.

## Sənət sevgisinin qaynağı

Öz dövrünün müəyyən qadağalarına görə ailələrdə qızların sənətə gəlmələrinə icazə verilmədiyini nəzərə alaraq Nəcibə xanımı Behbudovlar ailəsində doğulduğu üçün xoşbəxt adlandırmaq olar. 1914-cü ilin 6 yanvar tarixində Tiflisdə dünyaya gələn, əslən qarabağlı olan Nəcibə Behbudovanın atası Məcid Behbudov məhşur xanəndə kimi tanınıb, anası Firuzə Vəkilova isə Qazax rayonunun Yuxarı Salahlı kəndinin Vəkilovlar nəslinə mənsub olub və müəllimə işləyib. Ailələrində 3 uşaq böyüyüb. Böyük övlad Ənvər Behbudov, ortancıl Nəcibə Behbudova, evin kiçiyi isə Rəşid Behbudov olub. Azərbaycanın görkəmli sənətkarı Rəşid Behbudovun bacısı olduğunu, xanəndə ailəsində doğulduğunu bilmək kifayət edir ki, gələcəyin tanınmış aktrisasının sənət sevgisinin qaynağı bəlli olsun.

Altı yaşında Tiflisdəki əmək məktəbinə gedən Nəcibə Behbudova orta məktəbdə oxuduğu illərdə Nəriman Nərimanov adına klubun dram və rəqs dərnəklərində çıxış edib. Məktəbi bitirdikdən sonra (1931) Bakıya gəlib, burda Hidrologiya Texnikumuna daxil olub. Həmçinin Azərbaycan Dövlət Konservatoriyasında peşəkar vokal sənətimizin banisi, professor Bülbülün sinfinə gedib, vokal ifaçılığının müəyyən peşəkarlıq xüsusiyyətlərinə yiyələnib, konsertlərdə müğənni kimi çıxış edib.

1933-cü ildə Tiflisə qayıdan Nəcibə xanım Mirzə Fətəli Axundzadə adına Tiflis Azərbaycan Dövlət Teatrının truppasına daxil olub, burada iki il fəaliyyət göstərib. Bir müddət Gürcüstanın Adıgün rayonundakı Kolxoz teatrında çalışıb, sonra yenidən Tiflis teatrına dəvət edilib. 1941-1945-ci illərdə teatrda aktrisa kimi çalışıb, həmçinin bir sıra mədəni-maarif müəssisələrində yeniyetmələrin incəsənətə yiyələnmələri sahəsində fəaliyyət göstərib. 1947-ci ildə Tiflis Azərbaycan Dövlət Teatrı bağlandığından Bakıya gəlib.



Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına qəbul edilib, ömrünün sonuna kimi burda çalışıb. Teatr sənətində göstərdiyi xidmətlərə görə 1974-cü ildə "Əməkdar artist" fəxri adına layiq görülüb.

## Kinoda sevilmək

Musiqili Komediya Teatrının bünövrəsini qoyanlardan Xalq artistləri Nəsibə Zeynalova, Lütfəli Abdullayev və digər sənətkarlarla çiyin-çiyinə çalışan, teatrın aparıcı aktrisası kimi məşhurlaşan Nəcibə xanım "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunan bir neçə filmdə oynadığı rolları ilə də sənətsevərlərin rəğbətini qazanıb. "Bəyin oğurlanması" kinokomediyasında Bibixanım, "Sahilsiz gecə" kinodramında Ağabacı, "Ulduz" kinokomediyasında Tamam və başqa rolları aktrisanın yaradıcılıq potensialını bir daha təsdiqlədi. Yaradıcılıq plastikası zəngin, fərqli dəst-xətti olan aktrisaya, təəssüflər olsun ki, kinoda irihəcmli rollar həvalə edilmədi. Bununla belə Nəcibə xanım özünəməxsus üslubda yaratdığı müxtəlif xarakterli ekran personajlarını kinosevərlərə tanıtmağa, yaradıcılığı fonunda filmlərin uğuruna təkan verməyə müvəffəq oldu. Aktrisanın tamaşaçılara doğmalaşdırdığı ekran rollarının, təvazökar yaradıcılığının uğuru, məslək sirri haqqında bilgiləri ətraflı şəkildə həmkarlarının xatirələrindən öyrənək.

diyim mizanı bir də təkrarlayım, həmin səhnəni bir də oynayım. Mənim üçün narahat olma. Əsas rolun yaxşı alınmasıdır...".

İşə həmişə böyük məsuliyyətlə yanaşırdı. Əgər onun çəkiliş vaxtı saat 2-də olacaqdısa, çəkiliş meydançasına səhər tezdən gəlirdi, qrimlənirdi və çəkilməyini gözləyirdi.

Nəcibə xanımın öz plastikası vardı. Kamera qarşısında olduqca sərbəst idi. Personajın hərəkət və jestlərini dəqiq çatdırır, hiss edirdi ki, hansı məqamda hansı hərəkəti etməlidir. "Fəryad" filmində belə bir səhnə var ki, vəziyyətə uyğun olaraq evdəkilər hamısı zirzəmiyə qaçırlar. Həmin zirzəmi dekorasiya idi.



Ora qalxıb enmək üçün uzun bir pilləkən qoyulmuşdu. Nəcibə xanım əvvəlcə pilləkəni çevik qalxıb-düşürdü. Filmin sonunda isə hiss olunur ki, artıq o, yorulub. Plastik nöqteyi-nəzərdən mizanı dəqiq göstərərək obrazın hadisələrə uyğun mövqeyini olduqca inandırıcı yaratmışdı. Mən hər dəfə sözügedən epizoda baxanda həmin məqamları xatırlayıram və Nəcibə xanımın rolu məhz bu tərzdə oynamasını bəyənirəm. Təəssüflər olsun ki, böyük istedadına rəğmən Azərbaycan kinosunda az çəkildi, filmlərdə baş və aparıcı rollar yaratmadı. Amma oynadığı az ekran personajları ilə belə istedadlı aktrisa kimi yaradıcılığını təsdiqlədi.

Onu da əlavə edim ki, Behbudovlar ailəsinin qayınatam tərəfdən qohumluqları çatırdı.

Çəkiliş zamanı bəzən fasilə olurdu, belə olan halda Nəcibə xanımla söhbət edirdik, hər dəfə sadəliyinin, səmimiliyinin şahidi olurdum. Özünü bir ana, xala qədər bizə o qədər istətmişdi ki, istər-istəməz onunla söhbət edəndə rahat olurduq. Sadəliyi qədər də məğrur bir qadın idi.

Nəcibə xanım sənət bilgisindən və rolunu dərindən duymasından irəli gələn səbəblərdən personajını ən incə ştrixlərlə yadda saxlamağı bacarırdı. Bu kimi xüsusiyyət özü sənət sevgisidir, yaradıcılığa, ümumilikdə filmə uğur qazandıran amildir. Onu da qeyd edim ki, Nəcibə xanımın oğlu Cəfər Behbudovun ifası da filmin uğuruna uğur qatıb. Filmdə səslənən "Axşamüstü" mahnısı tamaşaçılar tərəfindən sevilən, sonra isə fərdi repertuarlara köçən mahnılardandır.

Ümumiyyətlə, Emin Sabitoğlu film üçün çox gözəl mahnılar və musiqi parçaları yazmışdı. Yadımdadı, filmin musiqilərini "Mosfilm" Kinostudiyasının səsyazma studiyasında yazdırırdıq. Emin müəllimlə oturub səs yazılışlarını izləyirdik. Mən işimlə bağlı bir neçə dəqiqəlik dəhlizə çıxmalı oldum. Qayıdanda "Mosfilm"in işçilərinin studiyanın qapısının ağzına toplaşıb mahnıları dinlədiklərini gördüm. Bu səhnə mənə "Bəxtiyar" filmindəki məşhur kadrları xatırlatdı. Göründüyü kimi, filmin uğurunda Behbudovlar ailəsinin də rolu böyükdür".

Əməkdar mədəniyyət işçisi, film direktoru Akif Rüstəmov: "Nəcibə xanımla "Təxribat" filmində çalışmışam. Həmin filmin ikinci rejissoru (Süleyman Əhmədovla birgə) kimi çalışırdım. Hazırlıq işlərinə baxırdım və çəkilişlərə nəzarət edirdim. Nəcibə xanım filmdə qonşu qadın roluna çəkilirdi. Çox ciddi xanım idi. Çəkilişə gələndə kənarda oturub roluna hazırlaşırdı, sonra da oturub gözləyirdi ki, onu nə vaxt çəkəcəklər. Çəkilib qurtarandan





sonra da həmişə nigaran qalırdı. Rejissor Eldar Quliyevə deyirdi ki, istəyirsinizsə bir dubl da çəkin, birdən kadr xoşunuza gəlməz. Eldar müəllim həmişə ondan razı qalırdı.

Baxmayaraq ki, görkəmli sənətkar Rəşid Behbudovun bacısı idi. Heç vaxt onun şöhrətindən istifadə etmirdi. Deyəndə ki, Nəcibə xanım arxanızca maşın göndərək, razı olmurdu. Çox sadə, səmimi qadın idi. Hər çəkilişə gələndə konfet və yaxud şirniyyat gətirirdi, deyirdi, uşaqlara ver çayla içsinlər. Gözəl insan, təvazökar xanım idi. Onu həmişə dərin hörmətlə xatırlayıram. Allah ona rəhmət eləsin...".

## Xatirələrdə yaşamaq

Əməkdar incəsənət xadimi, kinooperator Kənan Məmmədov: "Nəcibə xanımı bir aktrisa kimi yaxşı tanısam da, təəssüflər olsun ki, onu bir filmdə çəkmişəm. Mərhum rejissor, aktyor Ceyhun Mirzəyevin çəkdiyi "Fəryad" filmində erməni qadın rolunda. Filmin çəkilişləri zamanı onunla çox yaxşı münasibətlərimiz quruldu. Hərdən çəkilişdən əvvəl mənə lazım olan qeydlərimi edəndə Nəcibə xanımı nəzərə alırdım və düşünürdüm ki, yaşlı olduğu üçün onu çox incitməyim. O, bunu başa düşürdü və belə anlarda mənə yaxınlaşıb deyirdi ki, "Kənan oğlum, narahat olma, lazımdırsa mən çəkil-

Nəcibə xanım bir qohum kimi həmişə xeyirdə-şərdə iştirak edirdi, onlara gedib-gəlirdi. Mehriban, ünsiyyətcil xanım, gözəl insan, həm də peşəkar aktrisa idi...".

Əməkdar mədəniyyət işçisi, film direktoru Nadir Əliyev: "Nəcibə xanımla "Bəyin oğurlanması" filmində işləmişik. Çox sadə, ünsiyyətcil qadın idi. Baxmayaraq ki, uzun illər Musiqili Komediya Teatrının aparıcı aktrisalarından olmuşdu, amma yenə də hər çəkilişdə həyəcanlanırdı. Çalışırdı ki, çəkildiyi hər epizodda özünü göstərsin. Bunu da zəngin plastikasına, sənət duyumuna əsasən bacarırdı. Bibixanım rolunu elə real oynayırdı elə bilirdin ki, sənin doğma xalandı, bibindi.

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 19–21 yanvar

### Azərbaycan

**19 yanvar 1873** – Azərbaycanın ilk maarifçi qadınlarından Həmidə xanım Əhmədbəy qızı Məmmədquluzadə-Cavanşir (1873 – 6.2.1955) Ağcabədi rayonunun Kəhrizli kəndində anadan olub. Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin yaradıcılarındandır. Ömür-gün yoldaşı C.Məmmədquluzadənin bioqrafiyasını yazıb, Azərbaycan yazıçılarının əsərlərini ruscaya tərcümə edib.

**19 yanvar 1923** – Əməkdar incəsənət xadimi, müasir Azərbaycan təsviri sənətinin banilərindən Cavad Mirhaşım oğlu Mircavadov (1923 – 24.6.1992) Bakıda anadan olub. Əsərlərində şifahi xalq ədəbiyyatı personajlarına geniş yer verib. Əsərləri: "Şərq miniatürü mövzusunda improvizasiya" silsiləsi, "Toy", "Şaman-qadın" və s.

**19 yanvar 1931** – Xalq artisti Aydın Ağa oğlu Şahsuvarov (1931-1986) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**19 yanvar 1980** – Əməkdar artist Məmməd Abbasqulu oğlu Cəfərov (1912-1980) vəfat edib. Gəncə Dram Teatrında aktyor, Gəncə Dövlət Filarmoniyasında direktor işləyib.

**20 yanvar 1882** – Şair Bədri Seyidzadə (Bədrəddin Mir Kazım oğlu Seyidzadə; 1882-1945) Bakının Keşlə kəndində doğulub.

**20 yanvar 1924** – Əməkdar incəsənət xadimi Yusif Məmməd oğlu Bağırov (1924 – 28.11.1996) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrında quruluşçu rejissor və baş rejissor işləyib, "Azərbaycanfilm" Kinostudiyasında filmlərin ikinci rejissoru olub.

**20 yanvar 1946** – Əməkdar incəsənət xadimi, bəstəkar Tahir Əkbər (1946 – 2.3.2018; Tahir İsmayıl oğlu Əkbərov) anadan olub. Simfonik və kamera əsərlərinin, populyar mahnıların ("Dərdin alım", "Heç küsməyin yeridirmi?") müəllifidir.

**20 yanvar 1977** – Şair, publisist, Əməkdar mədəniyyət işçisi Zeynal Əliabbas oğlu Cabbarzadə (31.12.1920 –1977) vəfat edib.

**20 yanvar 2010** – Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində 20 Yanvar abidə kompleksinin açılışı olub. Abidə kompleksinin memarı Ədalət Məmmədov, heykəltəraşları Cavanşir Dadaşov və Azad Əliyevdir.

**21 yanvar 1907** – Tanınmış tarixçi və iqtisadçı, akademik Əlisöhbət Sumbat oğlu Sumbatzadə (1907 – 22.1.1992) Bakının Əmircan kəndində doğulub. Azərbaycan xalqının etnogenezinə dair tədqiqat əsərlərinin müəllifidir.

**21 yanvar 1924** – Məşhur bəstəkar, Xalq artisti Şəfiqə Qulam qızı Axundova (1924 - 26.7.2013) Şəkidə doğulub. Azərbaycanda opera ("Gəlin qayası") yazmış ilk qadın bəstəkardır. "Ev bizim, sirr bizim" operettasının, populyar mahnıların ("Mehriban olaq", "Nədən oldu" və s.), romansların müəllifidir.

**21 yanvar 1950** – Xalq şairi Zəlimxan Yusif oğlu Yaqub (1950 – 9.1.2016) Gürcüstanın Bolnisi rayonunun Kəpənəkçi kəndində doğulub. "Könlümün səsi", "Yolum eldən başlanıb", "Od aldığım ocaqlar", "Şairin taleyi" və s. kitabların müəllifidir. Milli Məclisin deputatı (1995-2005), Azərbaycan Aşıqlar Birliyinin sədri (2008-2016) olub.

**21 yanvar 2000** – Görkəmli bəstəkar, Xalq artisti Süleyman Əyyub oğlu Ələsgərov (22.2.1924 – 2000) vəfat edib. "Ulduz", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu" operettaları, "Bahadır və Sona", "Solğun çiçəklər" operaları, "Bayatı-Şiraz" simfonik muğamı və digər musiqi əsərlərinin müəllifidir.

**21 yanvar 2008** – Azərbaycan vokal sənətinin tanınmış nümayəndəsi, SSRİ Xalq artisti Lütfiyar Müslüm oğlu İmanov (17.4.1929 – 2008) vəfat edib. Opera və Balet Teatrında çalışıb, operalarda baş partiyaları ifa edib, Bakı Musiqi Akademiyasının professoru olub.

### Dünya

**19 yanvar 1809** – Amerika yazıçısı və şairi Edqar Po (Edgar Allan Poe; 1809-1849) anadan olub. Ədəbiyyatda detektiv-fantastik janrın yaradıcısı sayılır. Bir çox hekayə və novellaları ("Morq küçəsində qətl", "Mari Rojenin sirri", "Qara pişik", "Qarğa" və s.) əsasında filmlər çəkilib.

**19 yanvar 1839** – Fransız postimpressionist rəssamı Pol Sezan (Paul Cezanne; 1839-1906) anadan olub.

**19 yanvar 1865** – Rus rəssamı, portret janrının ustası Valentin Serov (1865-1911) anadan olub.

**20 yanvar 1804** – Fransız yazıçısı Ejen Syu (Marie Joseph Eugene Sue; 1804-1857) anadan olub. "Parisin sirləri", "Matilda", "Məhəbbət uşaqları" və s. romanların müəllifidir.

**20 yanvar 1920** – İtalyan kinorejissoru Federiko Fellini (Federico Fellini; 1920 – 31.10.1993) anadan olub. Beş dəfə "Oskar" mükafatına (o cümlədən fəxri "Oskar") layiq görülüb. Filmləri: "Yol", "Kabiriya gecələri", "Şirin həyat", "Səkkiz yarım", "Amarkord" və s.

**21 yanvar 1861** – Fransız rejissoru, dünya kinematoqrafının banilərindən biri Jorj Melyes (Maries-Georges-Jean Melies; 1861-1938) anadan olub. 1897-ci ildə yaratdığı "Star Film" studiyasında qısametrajlı filmlər çəkib.

**21 yanvar 1906** – SSRİ Xalq artisti, məşhur baletmeyster İqor Aleksandroviç Moiseyev (1906 – 2.11.2007) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

## Tanınmış rəssam 20 Yanvara yeni əsər həsr edib

Azərbaycan tarixinə milli hüzn və qürur günü kimi yazılan 1990-cı ilin 20 yanvar hadisələrindən 32 il ötür. Qanlı Yanvar ölkəmizdə müxtəlif yaradıcılıq sahələrində, o cümlədən təsviri sənətdə dönə-dönə əks olunub, rəssam və heykəltəraşlar tərəfindən maraqlı əsərlər ərsəyə gətirilib.




Azərbaycan Rəssamlar İttifaqı və Karikaturaçı Rəssamlar Birliyinin üzvü, beynəlxalq sərgilərin, müsabiqələrin laureatı, tanınmış plakat ustası Kirman Abdinin də yaradıcılığında Qara Yanvar mövzusu qırmızı xətlə keçir. Rəssam bu mövzuya silsilə əsərlər həsr edib. On il öncə, 2012-ci ildə müəllifin bu silsilədən əsərləri metronun "20 Yanvar" stansiyasında sərgilənib maraqla qarşılanıb.

Rəssam faciənin 32-ci ildönümünə "İşığından, zülmətindən qan daman gecə..." adlı yeni əsər həsr edib. Plakatda o məşum gecənin iki rəngi var: qırmızı və qara. Göz yaşı da qırmızı axır. Hətta çırağın işığı belə qırmızıdır. Müəllifin göz yaşı damlası içərisində qövsvarı ay (işıq) təsvir etməsi, əslində, qarşıdakı milli istiqlal yoluna, nurlu sabahlara bir işarədir. Bu ideya eyni zamanda çırağın kimyəvi yanacaq yerinə göz yaşı ilə yanmasıyla bir qədər də qüvvətləndirilir...

Plakatda kabus gecəsinin sabahı – can üstə olan qanlı imperiyanın törətdiyi dəhşətli qırğının gerçək miqyasının üzə çıxdığı gün – çəkilən fotolardan da istifadə edilib.

## Qalereya gənc rəssamları "AXIN"a çağırır

Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə 2 Fevral – Gənclər Gününə həsr olunmuş "AXIN" adlı sərginin keçirilməsi planlaşdırılır.

Qalereyadan bildirilib ki, sərgi gənclərin istedad və bacarıqlarının üzə çıxarılması, mədəni tədbir və layihələrdə iştiraklarının dəstəklənməsi, bədii-estetik zövqünün formalaşdırılması məqsədilə keçiriləcək.

Sərgidə iştirak etmək istəyən rəssamlardan 24 yanvar tarixinədək öz yaradıcılıqlarını əks etdirən sərbəst mövzulu rəsmlərini, "AXIN" kart nömrəsi, əlaqə nömrəsi, rəsmin adı, ölçüsü, texnikası, satılırsa qiyməti ilə birgə axinqrup@gmail.com ünvanına göndərmələri xahiş edilir.

## "Tammetrajlı bədii film layihələrinə dəstək 2022"

### Müsabiqənin 1-ci mərhələsinin müddəti uzadılıb

Milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq, bu istiqamətdə çalışan müstəqil prodüser mərkəzlərinin və istehsal şirkətlərinin fəaliyyətini stimullaşdırmaq, milli-mənəvi və ümumbəşəri dəyərləri filmlərlə təbliğ etmək, kino peşəkarlarının təcrübələrini daha da artırmaq məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən 2021-ci il dekabrın 1-dən elan olunmuş "Tammetrajlı bədii film layihələrinə dəstək 2022" müsabiqəsinə layihələrin qəbulu reqlamentə əsasən yanvarın 17-də başa çatmalı idi. Lakin müsabiqəyə göndərilən sənədlərin toplanması və bəzi müəlliflər tərəfindən ssenarilərinin tamamlanması üçün əlavə vaxt verilməsi ilə bağlı edilən müraciətləri nəzərə alaraq, müsabiqənin layihələrin qəbulu mərhələsinin yanvar ayının 31-dək uzadılmasına qərar verilib.




Məlumat üçün bildiririk ki, müsabiqənin digər mərhələləri reqlamentə uyğun olaraq davam edəcək. Reqlamentlə bu link vasitəsilə ətraflı şəkildə tanış olmaq mümkündür: http://mct.gov.az/az/bfdestek2022

Nəticələr mart ayının sonunda www.culture.gov.az saytında və "Mədəniyyət" qəzetində elan olunacaq.

№4 (1877)
19 yanvar 2022
www.medeniyyet.az

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ FOTOSƏRGİ

# Azərbaycan-Türkiyə diplomatik münasibətlərinin 30 illiyi

Xəbər verdiyimiz kimi, yanvarın 14-də Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik münasibətlərin yaradılmasının 30 ili tamam olub. Əlamətdar yubiley münasibətilə Xarici İşlər Nazirliyində fotosərgi keçirilib.

Xarici işlər nazirinin müavini Xələf Xələfov sərginin açılışında çıxış edərək bildirib ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonra ilk diplomatik əlaqələr məhz Türkiyə ilə qurulub. Bu əlaqələr iki ölkə arasında münasibətləri yeni mərhələyə keçirib.

Diqqətə çatdırılıb ki, diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə xarici işlər nazirləri arasında qarşılıqlı olaraq təbrik məktubları göndərilib: "Türkiyə ən çətin dövrlərdə Azərbaycan ilə birlikdə olub. Ölkələrimiz arasındakı qardaşlıq münasibətləri bütün dünyaya örnəkdir. Bu gün Azərbaycan-Türkiyə münasibətləri yüksək səviyyədə inkişaf etməkdədir. Ulu öndərlər Mustafa Kamal Atatürkün "Azərbaycanın



sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarları qardaşlığımızın mənəvi-ideoloji əsasını təşkil edir".

Nazir müavini çıxışında 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana qardaşlıq dəstəyi göstərdiyini xüsusi vurğulayıb. Bildirib ki, Azərbaycan bunu heç vaxt unutmayacaq. Vətən müharibəsində qazanılan şanlı Zəfər təkcə Azərbaycanın yox, bütün Türk dünyasının Qələbəsidir. Müharibədən sonra regionda yeni reallıqlar yaranıb və bölgədə Türkiyənin mövcudluğu gücümüzə güc qatır.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı ölkəsinin tarix boyu azərbaycanlı qardaşlarına dəstək olmağa çalışdığını bildirib: "Çanaqqala döyüşündə azərbaycanlı qardaşlarımız bizə kömək edib, fədakarlıq göstəriblər. Nuru paşa da Azərbaycanın çətin anlarında qardaşlarımızın köməyinə gəlib. Vətən müharibəsi zamanı Türkiyə Azərbaycana həm mənəvi, həm də siyasi dəstəyini əsirgəmədi. Biz bütün sahələrdə, o cümlədən beynəlxalq platformalarda daim bir-birimizin yanındayıq. Şuşa Bəyannaməsinin imzalanması əlaqələrimizin zirvəsi oldu. Biz birlikdə bir çox layihələrə imza atmışıq və bunu davam etdirəcəyik".

Çıxışlardan sonra sərgiyə baxış keçirilib.

"NİZAMİNİ OXUYAQ"

# Kitab-albomun Serbiyada təqdimatı



Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Azərbaycanın Serbiyadakı Səfirliyi, Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Belqradda dahi şair və mütəfəkkir Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Nizamini oxuyaq" kitab-albomunun təqdimatı keçirilib. Kitab-albom ötən il TÜRKSOY-un layihəsi əsasında ərsəyə gəlib.

Belqrad Meriyasında təşkil olunan təqdimatda TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Mispah Demircan, Serbiyanın mədəniyyət və informasiya nazirinin müavini Stanko Blaqoyeviç çıxış ediblər.

Düsen Kaseinov ingilis dilində nəşr olunan və indiyədək bir neçə şəhərdə təqdimatı keçirilən "Nizamini oxuyaq" kitab-albomu haqqında məlumat verib.

Kamil Xasiyev bildirib ki, Nizami Gəncəvi fenomen olaraq bütün dünya üçün örnəkdir: "Nizami Gəncəvinin yaşadığı dövrdən əsrlər sonra onun əsərlərindən Türk dünyası, Yaxın Şərq mütəfəkkirləri, eləcə də avropalı fikir adamları ilham alıblar".

Çıxışlarda Nizaminin humanizm ideyaları, ədalətli cəmiyyət barədə fikirlərindən bəhs edilib. Mütəfəkkir şairin əsərlərinin əlyazmalarının bu gün dünyanın aparıcı kitabxanalarında və muzeylərində saxlanıldığı qeyd olunub.



Sonra kitabın təqdimatı üçün rəmzi lent kəsilib. D.Kaseinov səfir Kamil Xasiyevə və Serbiyanın mədəniyyət nazirinin müavini Stanko Blaqoyeviçə TÜRKSOY-un Nizami Gəncəvinin 880 illiyi münasibətilə hazırladığı xatirə lövhələrini təqdim edib.

Tədbir iştirakçıları Nizami Gəncəviyə həsr edilən sərgi ilə tanış olub, şairin sözlərinə yazılmış romanslardan ibarət musiqi proqramını dinləyiblər.

**Mehparə Sultanova**
**Ankara**

İSTANBULDA TAMAŞA

# "Qızıl alma – Şuşanın oyanışı"

İstanbulda Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərə həsr olunan "Qızıl alma – Şuşanın oyanışı" tamaşası nümayiş etdirilib. Gültəpə Mədəniyyət Mərkəzində (İstanbulun Kağıthanə rayonu) təqdim olunan tamaşa "Umut oyunçuları" teatrı tərəfindən ərsəyə gəlib.

Səhnə əsəri barədə məlumat verən "Umut oyunçuları"nın koordinatoru Ayhan Ünlü iki il əvvəl İstanbulun Kağıthanə Bələdiyyəsinin dəstəyi ilə eyni səhnədə Xocalı soyqırımına həsr olunan tamaşanın nümayiş etdirildiyini xatırladıb: "Türkiyənin də mənəvi dəstəyi ilə Azərbaycanın Şuşanı işğaldan azad etməsini bir daha qeyd etmək üçün belə bir layihəyə imza atdıq. Səhnə əsərində yer alan aktyorlardan dördü Türkiyədə televiziya seriallarında rol alan və tamaşaçı tərəfindən tanınan şəxslərdir. Digərləri də teatrımızın aktyorlarıdır. Bu cür layihələrin bundan sonra da davamının gələcəyinə inanıram. Qismət olsa, tamaşamızı Azərbaycanda da nümayiş etdirməyi düşünürük".



Səhnə əsərinin prodüseri Ayhan Ünlü, ssenari müəllifi Sevinc Mehrəliyeva, rejissorları Ümit Anaç və Şahin Deyirmenci, bədii rəssamı Ülkər Əbülfət, geyim rəssamı Taha Yasin Ünlüdür. "Oğuzlar üçün, hansı tərəfə gedərlərsə-getsinlər, Zəfər əldə edilmədən əvvəl Qızıl almadır" şüarı ilə baş tutan tamaşada Azərbaycan musiqilərindən istifadə olunub.

Rolları Ümit Anaç, Fatma Ayaz, Dilfuza Yorova, Emrehan Yavuz, Tülay Kurt, Sedat Ustaoğlu və Gökcan Yılmaz ifa ediblər.

1 500 000 000 000 DOLLAR

# Pandemiya zənginləri daha zəngin edib

Dünyanın 10 ən zəngin adamı COVİD-19 pandemiyası zamanı sərvətlərini ikiqat artırarkən bəşəriyyətin 99 faizinin gəliri azalıb.

Qlobal yoxsulluğun azaldılmasına diqqət yetirən xeyriyyə təşkilatı "Oxfam" Davosda keçiriləcək Dünya İqtisadi Forumu ərəfəsində qeyri-bərabərliyə dair hesabatını açıqlayıb.

"Oxfam"a görə, pandemiyanın başladığı 2020-ci ilin martından bəri dünyanın 10 ən varlı adamının, o cümlədən İlon Mask, Ceff Bezos və Bill Qeytsin sərvəti iki dəfədən çox artaraq 1,5 trilyon dollara çatıb. Bu, dünyanın ən yoxsul 3 milyard insanının ümumi qazancından altı dəfə çoxdur.

Koronavirus pandemiyasının milyarderlərin xeyrinə olduğunu bildirən "Oxfam"ın icraçı direktoru Qabriela Buçer səhmlərinin artması sayəsində super zənginlərin sayının artdığını da vurğulayıb.

"FİLMİNG AZERBAİJAN"

# "Dubai Expo"da təqdim olunub

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində ötən ilin 1 oktyabrında işə başlayan dünya sərgisində – "Dubai Expo"da ölkəmiz də uğurla təmsil olunur. Sərgi kompleksindəki Azərbaycan pavilyonunda müxtəlif təqdimatlar, konsert proqramları təşkil edilir.




Yanvarın 11-də "Dubai Expo" sərgi məkanının "Terra Auditorium" zalında Azərbaycan Film Komissiyasının ("Filming Azerbaijan") təqdimatı keçirilib. Mərasimdə müxtəlif ölkələrin film sektorunun nümayəndələri iştirak ediblər.

Mədəniyyət Nazirliyinin Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov çıxış edərək "Filming Azerbaijan" təşəbbüsünün Azərbaycanın "film turizmi" potensialını üzə çıxaracağını, ölkəmizə bu istiqamətdə sərmayəni artıracağını və iqtisadi baxımdan əlverişli imkanlar yaradacağını qeyd edib. Diqqətə çatdırıb ki, yarandığı bir il ərzində Film Komissiyası ABŞ, Türkiyə, Hindistan, Livan və digər ölkələrin kinematoqrafçıları ilə Azərbaycan ərazisində film çəkilişini təşkil edib. 2021-ci ildə "Netflix" platforması ilə əməkdaşlıq nəticəsində ABŞ istehsalı olan böyük büdcəli filmin çəkilişlərinin bir hissəsi Bakıda aparılıb.

Qeyd edək ki, dünyanın əksər ölkələrində Film Komissiyası aktiv şəkildə fəaliyyət göstərir. Azərbaycan Film Komissiyası 2021-ci ilin yanvarında Mədəniyyət Nazirliyi tərəfindən ölkə ərazisində film çəkilişlərinə dəstək və təşviq məqsədilə yaradılıb. Milli kinematoqrafiyanın inkişaf etdirilməsi və dünya kinosuna inteqrasiyası baxımından çox vacib olan bu addım kino sənayesində mühüm dəyişikliklərə səbəb olacaq.

"Dubai Expo"da keçirilən təqdimat da ilk nəticəsini verib. Monteneqronun və BƏƏ-nin bir neçə aparıcı film şirkətləri ilə ortaq layihələr müzakirə olunub.

"Dubai Expo"da 190 ölkə təmsil olunur. Sərgi 2022-ci il martın 31-nə qədər davam edəcək.

Xronoqraf

# Tarixdə bu gün

Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 757 il əvvəl...



**20 yanvar 1265-ci ildə** Londonda Vestminster Sarayında ilk ingilis parlamenti işə başlayıb. Dünya parlamentarizminin ən qocaman nümunəsi olan İngiltərə parlamenti bu gün də əsas tarixi atributlarını və mühafizəkarlıq səciyyəsini saxlamaqdadır.

### 368 il əvvəl...

**21 yanvar 1654-cü ildə** Ukraynanın Rusiyaya birləşdirilməsi barədə qərar qəbul edilib. Ukrayna getmanı Boqdan Xmelnitskinin təşəbbüsü ilə Pereyaslav radasında çıxarılan qərara əsasən, Krım və Qərbi Ukrayna istisna olmaqla, indiki Ukraynanın ərazisi Rusiya çarlığına birləşdirilib.

### 290 il əvvəl...

**21 yanvar 1732-ci ildə** Səfəvi dövləti ilə Rusiya arasında Rəşt müqaviləsi bağlanıb. Müqaviləyə əsasən, Rusiya I Pyotrun vaxtında işğal etdiyi Xəzəryanı əraziləri – Kür çayından şimalda yerləşən Azərbaycan torpaqlarını Səfəvi dövlətinə qaytarıb. Öz növbəsində Səfəvi dövləti Rusiyanın regionda rəqibi olan Türkiyəni (Osmanlı imperatorluğunu) bu ərazilərə buraxmamaq barədə öhdəlik götürüb. Bundan əlavə, müqaviləyə əsasən, Rusiya tacirləri Səfəvi dövləti ərazisində rüsumsuz ticarət etmək hüququ əldə etdilər.

### 265 il əvvəl...

**22 yanvar 1757-ci ildə** Avstriya ilə Rusiya arasında Peterburq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Rusiya Avstriya-Prussiya müharibəsində birincinin tərəfini saxladı və bunun müqabilində Köniqsberq (indiki Kalininqrad) vilayətini əldə etdi. Sonralar ruslar Köniqsberqi itirsələr də, İkinci Dünya müharibəsinin nəticələrinə əsasən, bu vilayət yenidən SSRİ-yə (Rusiyaya) birləşdirildi.

### 191 il əvvəl...

**20 yanvar 1831-ci ildə** Hollandiyanın müstəmləkəsi olan Belçika dövlət müstəqilliyi əldə edib. Londonda keçirilən beynəlxalq konfransda Böyük Britaniya, Fransa, Prussiya və Rusiya Belçikanın müstəqilliyinin təminatçısı kimi çıxış edirdilər.

### 146 il əvvəl...

**21 yanvar 1876-cı ildə** Orta Asiyaya (Türküstan) müstəmləkəçilik yürüşünü davam etdirən çar Rusiyası Kokand xanlığını və onun mərkəzi Əndican şəhərini (indiki Özbəkistan ərazisi) ələ keçirib.

### 107 il əvvəl...



**19 yanvar 1915-ci ildə** dünya müharibələri tarixində ilk dəfə hava hücumu faktı qeydə alınıb. Almaniya hərbi dəniz donanmasına məxsus 3 dirijabl İngiltərə ərazilərini bombardman edib. Lakin Almaniya ordusunun bu əməliyyatı sonda uğursuzluğa düçar olub. Dirijabllar da geri qayıdarkən tufana düşərək qəzaya uğrayıblar.

### 32 il əvvəl...

**20 yanvar 1990-cı ildə** Sovet ordusu Bakıda qırğın həyata keçirib. SSRİ Ali Sovetinin sədri Mixail Qorbaçovun Bakıda fövqəladə vəziyyətin tətbiqi haqqında fərmanına əsasən, şəhərə ordu hissələri yeridilib. Məqsəd respublikada milli-azadlıq hərəkatını boğmaq idi. Fərman 19 yanvarda verilsə də, yanvarın 20-si səhərə yaxın, şəhərdə qırğın törədiləndən sonra elan edilmişdi. Sovet qoşunlarının təcavüzü zamanı (daha sonra dəqiqləşdirilmiş rəqəmlərə görə) 147 nəfər öldürülmüş, 800-dən çox adam yaralanmışdı. Ölənlər arasında 20-dən çox qadın və uşaq var idi.

### 29 il əvvəl...



**19 yanvar 1993-cü ildə** Azərbaycan parlamenti "Dövlət gerbi haqqında" Konstitusiya qanunu qəbul edib. Xalq Cümhuriyyəti dövründə Dövlət gerbi haqqında müsabiqə elan edilsə də (yanvar 1920), onu başa çatdırmaq mümkün olmamışdı. 1991-ci ildə Ali Sovetin qərarı ilə yeni müsabiqə elan olundu və Cümhuriyyət dövründə hazırlanmış layihələrdən biri kiçik dəyişikliklərlə təsdiq edildi. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən qalxan təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycanın Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri var.

**22 yanvar 1993-cü ildə** Naxçıvanda Türkiyə Cümhuriyyətinin Baş Konsulluğu açılıb. Bu, muxtar respublikada fəaliyyətə başlayan ilk xarici ölkə diplomatik nümayəndəliyi idi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 204
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641